RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 154 (8747) ÇƏRŞƏNBƏ, 28 iyul 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Azərbaycan, Türkiyə və Pakistan birliyinin təcəssümü

## Prezident İlham Əliyev Türkiyə Böyük Millət Məclisi Sədrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 27-də Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentopun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentop Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev Türkiyə dövlətinin başçısının salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Rəcəb Tayyib Ərdoğana çatdırmağı xahiş etdi.

Görüşdə Türkiyə Böyük Millət Məclisi sədrinin ölkəmizə səfərinin Azərbaycanla Türkiyə arasında əlaqələrin daha da möhkəmlənməsi işinə töhfə verəcəyi qeyd edildi. Mustafa Şentopun başçılıq etdiyi nümayəndə heyətinin Şuşaya edəcəyi səfərin önəminə toxunularaq bildirildi ki, Azərbaycan və Türkiyə prezidentləri arasında imzalanan müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi əlaqələrimizin daha yüksək səviyyəyə qalxmasına xidmət edir. Söhbət zamanı Azərbaycanla Türkiyə arasında bütün sahələrdə uğurlu işbirliyinin olduğu vurğulandı.

*Ardı 2-ci səh.*

## Prezident İlham Əliyev Pakistan Milli Assambleyasının Sədrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 27-də Pakistan Milli Assambleyasının Sədri Əsəd Qeysərin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, Pakistan Milli Assambleyasının Sədri Pakistan İslam Respublikasının Prezidenti Arif Alvinin və Baş nazir İmran Xanın salamlarını Azərbaycan Prezidentinə çatdırdı.

Prezident İlham Əliyev Pakistan Prezidentinin və Baş nazirinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Arif Alviyə və İmran Xana çatdırmağı xahiş etdi. Milli Assambleyanın sədri dövlətimizin başçısını 44 günlük Vətən müharibəsində qazanılan Qələbə münasibətilə təbrik edərək Pakistan xalqının bu Zəfəri Azərbaycan xalqı ilə birlikdə qeyd etdiyini dedi. Görüşdə Pakistan Milli Assambleyasının sədrinin ölkəmizə səfərinin ikitərəfli münasibətlərin gələcək inkişafı baxımından önəmi qeyd edildi. Həmçinin Pakistan, Türkiyə və Azərbaycan parlamentlərinin sədrlərinin üçtərəfli görüşünün əhəmiyyəti vurğulandı, bu görüşün qardaş ölkələr arasında üçtərəfli tərəfdaşlığın inkişafı işinə xidmət etdiyi qeyd olundu, Pakistan və Azərbaycanın bütün məsələlərdə hər zaman bir-birini dəstəkləyən qardaş ölkələr olduğu bildirildi.

*Ardı 2-ci səh.*

## Azərbaycan-ABŞ əməkdaşlığı daha geniş tərəfdaşlıq formatına çevrilir



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 27-də Amerika Birləşmiş Ştatlarının Oklahoma ştatının qubernatoru Con Kevin Stittin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, görüşdə Amerika Birləşmiş Ştatlarının Oklahoma ştatının qubernatoru Con Kevin Stittin Azərbaycana səfərinin əhəmiyyətinə toxunuldu. Azərbaycanla ABŞ arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyi bildirildi, ölkəmizin ABŞ-ın ayrı-ayrı ştatları, o cümlədən 2000-ci ilin əvvəllərindən Oklahoma ştatı ilə əməkdaşlığından məmnunluq ifadə olundu.

*Ardı 2-ci səh.*

## Dost, qardaş və müttəfiq ölkələrin üçtərəfli görüşünün yekunlarına dair Bakı Bəyannaməsi imzalandı



*Bax: səh. 3*



## Yüksəliş və quruculuq nümunəsi

**Vətən müharibəsini möhtəşəm qalibiyyətlə başa vuran Azərbaycan qədim tarixini yeni nailiyyətlərlə zənginləşdirdi. İndi Qarabağda infrastruktur layihələrin sürətlə həyata keçirilməsi ilə yanaşı, sosial-iqtisadi sferada da müsbət göstəricilər əldə olunmaqdadır. Prezident İlham Əliyevin bir neçə gün əvvəl ölkəmizin qərb bölgəsinə səfəri və bu səfər zamanı Azərbaycan Televiziyasına müsahibəsində səsləndirdiyi rəqəmlər bunu təsdiq edir.**

Milli Məclisin deputatlarının bu barədə açıqlamalarını oxuculara təqdim edirik.

*Ardı 5-ci səh.*




## Olimpiadada 5-ci gün arxada qaldı

### İdmançılarımız hələ də medal qazana bilməyiblər

**Azərbaycan millisi Tokio Yay Olimpiya Oyunlarının 5-ci gününü də medalsız başa vurub. Yığmamızın Olimpiadanın startında medalsız qalması heç də ilk belə hal deyil.**




İdmançılarımız indiyədək qatıldığı 6 Olimpiadanın yalnız ikisində medal hesabını daha tez açıblar. 2004-cü və 2016-cı illərdə isə ilk uğur yarışın 4-cü günündə qazanılıb. Amma ən böyük həsrət “Atlanta-1996”da yaşanıb. Həmin vaxt ilk mükafat yarışların 14-cü günündə əldə olunub.

Odur ki, atletlərimizdən qarşıdakı günlərdə medallar gözləyirik. Hər gün milyonlarla tamaşaçının nəbzi idmançılarımızla vurur. Ümid edirik ki, güləşdə, karatedə, boksda və hələ davam edən cüdoda idmançılarımız etimadı doğruldacaqlar.

*Bax: səh. 7*



## Gədəbəyin qonaqlı-qaralı vaxtıdır

### Rayonda kənd turizmi geniş yayılıb

Azərbaycanın turizm bölgələrindən olan Gədəbəyin həm füsunkar təbiəti, həm də qədim və zəngin tarixi var. Hələ XIX əsrin ortalarında Simens qardaşları burada misəritmə zavodu inşa etmişdi. Həmin vaxt bu zavod Avropada, hətta dünyada ən böyük sənaye müəssisələrindən sayılırdı.

Lev Polonski “Simens Qafqazda” adlı kitabında yazırdı ki, Avropanın mərkəzi şəhərləri olan Londonda, Parisdə, Sankt-Peterburqda kerosin lampa istifadə edildiyi dövrdə Azərbaycanın Gədəbəy bölgəsində elektrik işığı yanırdı.

*Ardı 6-cı səh.*

# Azərbaycan, Türkiyə və Pakistan birliyinin təcəssümü

## Prezident İlham Əliyev Türkiyə Böyük Millət Məclisi Sədrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib



*Əvvəli 1-ci səh.*

Bakıda keçiriləcək Azərbaycan, Türkiyə və Pakistan parlament sədrlərinin birinci üçtərəfli görüşünün önəmi qeyd edilərək bildirildi ki, bu görüş üç ölkə arasında mövcud olan birliyi nümayiş etdirir.

Vurğulandı ki, Azərbaycan, Türkiyə və Pakistan arasında qardaşlıq əlaqələri mövcuddur. Həm Türkiyə, həm də Pakistanın Vətən müharibəsinin ilk anlarından Azərbaycana dəstəyinin mühüm rolu qeyd edildi. Söhbət zamanı üç ölkə arasında əməkdaşlığın geniş mənada Avrasiyada yeni işbirliyi çərçivələri formalaşdırdığı bildirildi. Görüşdə Azərbaycan və Türkiyə parlamentlərarası əməkdaşlığının da uğurla inkişaf etdiyi vurğulandı, ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin bundan sonra da möhkəmlənəcəyinə və genişlənəcəyinə əminlik ifadə olundu.

## Prezident İlham Əliyev Pakistan Milli Assambleyasının Sədrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib



*Əvvəli 1-ci səh.*

Görüşdə İkinci Qarabağ müharibəsi zamanı Pakistanın dəstəyinə görə minnətdarlıq ifadə edildi, müharibənin ilk günlərindən dost ölkənin rəhbərliyinin Azərbaycanı dəstəklədiyi və Azərbaycanın ərazi bütövlüyü ilə bağlı önəmli bəyanatlar verdiyi qeyd olundu. Söhbət zamanı ölkələrimizin bütün beynəlxalq təşkilatlarda bir-birini dəstəklədikləri vurğulandı. Prezident İlham Əliyev Pakistana səfərini məmnunluqla xatırladaraq əməkdaşlığın müxtəlif sahələrdə daha da genişləndirilməsinin zəruriliyini qeyd etdi. Görüşdə Pakistan Milli Assambleyasının Sədrinin Şuşaya edəcəyi səfərin əhəmiyyətinə toxunuldu və bu, ölkələrimiz arasında münasibətlərin inkişafının bariz nümunəsi kimi dəyərləndirildi.

Söhbət zamanı ölkələrimizin parlamentləri arasında əməkdaşlığın inkişafı məmnunluqla qeyd edildi.

# Azərbaycan-ABŞ əməkdaşlığı daha geniş tərəfdaşlıq formatına çevrilir







*Əvvəli 1-ci səh.*

Con Kevin Stitt Zəngilan rayonuna edəcəyi səfərinin Azərbaycanın həmin ərazilərdə icra etdiyi "yaşıl enerji" və "ağıllı kənd" layihələri ilə yaxından tanış olmağa imkan yaradacağına ümid etdiyini bildirdi. Oklahoma Milli Qvardiyası ilə Azərbaycanın Müdafiə Nazirliyinin təxminən 20 ildir əməkdaşlıq etdiyi və indi bu əməkdaşlığın daha geniş tərəfdaşlıq formatına çevrildiyi vurğulandı. Söhbət zamanı Oklahoma ştatı ilə kənd təsərrüfatı sahəsində əməkdaşlıq məsələlərinə toxunuldu, azərbaycanlı tələbələrin bu ştatda kənd təsərrüfatı üzrə təhsil aldıqları məmnunluqla qeyd edildi.

Görüşdə əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

Sonda xatirə hədiyyələri təqdim olundu.

# Azərbaycanın, Türkiyənin və Pakistanın parlament sədrləri Ulu Öndərin məzarını və Şəhidlər xiyabanını ziyarət ediblər







Azərbaycan Milli Məclisinin Sədri Sahibə Qafarova, Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentop və Pakistan İslam Respublikasının Milli Assambleyasının Sədri Əsəd Qeysər iyulun 27-də Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla yad edərək məzarı önünə əklil qoyublar.





AZƏRTAC xəbər verir ki, görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın xatirəsi də yad edilib, məzarı üzərinə tər çiçəklər düzülüb.

Sonra Şəhidlər xiyabanına gələn parlament sədrləri Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olan qəhrəman vətən övladlarının xatirəsinə ehtiramlarını bildirib, məzarları üzərinə gül dəstələri düzüb, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyublar. Bakının ən hündür nöqtəsindən şəhərin mənzərəsini seyr edən qonaqlara paytaxtımızda aparılan abadlıq-quruculuq işləri barədə məlumat verilib. Parlament sədrləri həmçinin 1918-ci ildə Bakının azad edilməsi uğrunda döyüşlərdə həlak olmuş şəhid türk əsgərlərinin xatirəsinə ucaldılmış "Türk şəhidliyi" abidəsini ziyarət ediblər. Eyni zamanda, abidənin önünə əklil qoyulub, türk şəhidlərinin xatirəsi ehtiramla yad edilib.

Sonra Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentop xatirə kitabına ürək sözlərini yazıb.

# Dost, qardaş və müttəfiq ölkələrin üçtərəfli görüşünün yekunlarına dair Bakı Bəyannaməsi imzalandı

İyulun 27-də Bakıda Azərbaycan Respublikası Milli Məclisinin Sədri Sahibə Qafarova, Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentop və Pakistan İslam Respublikası Milli Assambleyasının Sədri Əsəd Qeysərin iştirakı ilə birinci üçtərəfli görüş keçirilib.








AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Milli Məclisinin Sədri Sahibə Qafarova giriş nitqi ilə çıxış edərək qonaqları səmimiyyətlə salamlayıb. O, ötən ay Azərbaycan parlament nümayəndə heyətinin İslamabad şəhərində İqtisadi Əməkdaşlıq Təşkilatının İkinci Ümumi Konfransında iştirakını xatırladaraq konfrans çərçivəsində keçirilən görüşlərin olduqca faydalı olduğunu, bir sıra vacib qərarlar qəbul edildiyini diqqətə çatdırıb. Bildirib ki, bunlardan biri də Azərbaycan tərəfindən irəli sürülmüş Azərbaycan, Pakistan və Türkiyə parlamentlərarası əməkdaşlıq formatının təsis edilməsi ilə bağlı təşəbbüsdür.

Beynəlxalq aləmdə öz sözü olan Azərbaycan, Pakistan və Türkiyənin bu gün öz regionlarında aparıcı ölkələr sırasına daxil olduqlarını diqqətə çatdıran Milli Məclisin Sədri hər üç dövlətin müstəqil xarici siyasət həyata keçirdiyini qeyd edib.

Dövlətlərimiz arasında mövcud olan münasibətlərin və qarşılıqlı faydalı əməkdaşlığın beynəlxalq münasibətlər sistemində özünəməxsus yeri və rolu var. Azərbaycan, Pakistan və Türkiyə bir-biri ilə sıx bağlı olan dost, qardaş və müttəfiq ölkələrdir, əlaqələrimiz qarşılıqlı hörmət və etimada əsaslanır. Sahibə Qafarova bildirib ki, ölkələrimiz artıq bir neçə sahədə üçtərəfli formatda əməkdaşlıq edir. Belə ki, Azərbaycan, Pakistan və Türkiyə xarici işlər nazirləri, habelə müdafiə nazirlikləri arasında sıx əməkdaşlıq mövcuddur.

Xalqlarımızın hər zaman bir-birinə bağlı olduqlarını və öz dəstəklərini əsirgəmədiklərini xatırladan S.Qafarova bunun bariz nümunəsi olaraq, Vətən müharibəsi zamanı Pakistan və Türkiyənin Azərbaycana göstərdiyi mənəvi-siyasi dəstəyi qeyd edib. Onun sözlərinə görə, bu dəstək xalqımız tərəfindən çox böyük rəğbət və sevgi ilə qarşılanıb, şəhər və kəndlərimizdə Azərbaycan bayrağı ilə yanaşı, Pakistan və Türkiyə bayraqları da qürurla dalğalandırılıb. Milli Məclisin Sədri xüsusi qeyd edib ki, hökumətlərimiz və xalqlarımız arasında qardaşlıq münasibətləri ali qanunvericilik orqanlarımızın timsalında da öz əksini tapır. Məhz bu münasibətlərin daha da genişləndirilməsi məqsədilə Azərbaycan Respublikasının Milli Məclisi parlamentlərarası üçtərəfli əməkdaşlıq formatının təsis edilməsi təşəbbüsünü irəli sürüb. Bu təşəbbüs Pakistan və Türkiyə tərəfindən müsbət qəbul olunub.

Sonra gündəlikdə duran məsələlər müzakirə olunub.

Gündəliyə əsasən, əvvəlcə Bakı Bəyannaməsinin mətni müzakirə və təsdiq edilib. Sonra gələcək koordinasiya üçün əlaqələndirici şəxslər təyin olunub. Həmçinin Azərbaycan, Türkiyə və Pakistanın parlament sədrlərinin ikinci üçtərəfli görüşünün 2022-ci ildə İslamabad şəhərində keçirilməsi qərara alınıb.

Görüşün yekununda Sahibə Qafarova bu gün təməli qoyulan üçtərəfli parlamentlərarası əməkdaşlıq formatının ölkələrimiz arasında tarixi qardaşlıq və dostluq münasibətlərinin daha da inkişaf etdirilməsinə, xalqlarımızın ortaq maraqlarına yüksək səviyyədə xidmət etməyə mühüm töhfə verəcəyini diqqətə çatdırıb.

Sonra parlament sədrlərinin birinci üçtərəfli görüşünün yekunlarına dair Bakı Bəyannaməsinin imzalanması mərasimi keçirilib.

Mərasimdə Milli Məclisin Sədri Sahibə Qafarova çıxış edərək Azərbaycan parlamentində belə bir tədbirin keçirilməsini tarixi hadisə kimi dəyərləndirib. Bildirib ki, Azərbaycan, Pakistan və Türkiyə arasında mövcud olan münasibətlər və əməkdaşlıq xalqlarımızın qardaşlıq əlaqələrinə, qarşılıqlı hörmət və etimadına söykənir.

Sahibə Qafarova qeyd edib ki, Azərbaycan öz ərazi bütövlüyünü və tarixi ədaləti bərpa edərək BMT Təhlükəsizlik Şurasının uzun illər kağız üzərində qalan qətnamələrinin icrasını öz gücü ilə təmin edib. Milli Məclisin Sədri diqqətə çatdırıb ki, 2020-ci ilin noyabrında Azərbaycan, Rusiya prezidentlərinin və Ermənistan baş nazirinin imzaladıqları üçtərəfli bəyanatla münaqişəyə son qoyulub və hazırda bölgədə yeni reallıq yaranıb.

Parlamentin sədri söyləyib ki, haqlı mübarizəmizdə qardaş ölkələr Türkiyə və Pakistan tərəfindən bizə açıq siyasi və mənəvi dəstək göstərilməsi dövlətlərimiz arasında müttəfiqliyin yüksək səviyyədə olduğunu nümayiş etdirdi. Milli Məclisin Sədri dünyada qərəzli və ədalətsiz yanaşmaların mövcudluğu və getdikcə artması səbəbindən qardaş dövlətlərin parlamentlərinin də bu proseslərə fəal dəstək göstərməsinin çox əhəmiyyətli olduğunu deyib.

Sahibə Qafarova qeyd edib ki, parlament sədrlərinin üçtərəfli əməkdaşlıq platformasının səmərəli fəaliyyət göstərməsi ortaq milli maraqlarımızın beynəlxalq platformalarda, xüsusən beynəlxalq parlament təşkilatları çərçivəsində birgə müdafiəsini təmin edəcəkdir. Azərbaycanın 44 günlük Vətən müharibəsində Qələbəsi, 30 illik münaqişəyə son qoyulması, həmçinin regionun geosiyasi mənzərəsini dəyişib. Bu gün Cənubi Qafqaz regionu üçün sülh, sabitlik və hərtərəfli əməkdaşlıq imkanları, nəqliyyat və kommunikasiya əlaqələrinin reallaşması üçün şərait yaranıb. Bu gün artıq Zəngəzur dəhlizinin bərpa olunması üçün addımlar atılır.

Bu, Türkiyə ilə Azərbaycan arasında birbaşa və daha səmərəli əlaqəni təmin edəcək bir dəhlizdir.

Milli Məclisin Sədri onu da diqqətə çatdırıb ki, Xəzər dənizi vasitəsilə Əfqanıstan və Mərkəzi Asiyanı Cənubi Qafqaz regionu və Türkiyə ilə birləşdirən Lapis-Lazuli dəhlizi regional nəqliyyat əlaqələrini getdikcə genişləndirməkdədir. Zəngəzur dəhlizi işə salındıqdan sonra qardaş Pakistandan Türkiyəyə qədər olan nəqliyyat xəttinin səmərəli fəaliyyəti reallığa çevriləcəkdir.

Sahibə Qafarova bildirib ki, 3 qardaş ölkənin parlament sədrlərinin yeni formatda ilk görüşünün yekununda qəbul olunan Bakı Bəyannaməsində əksini tapan məsələlərin dövlətlərimiz arasında münasibətlərin inkişafının parlament ölçüsünü möhkəmləndirməyə kömək göstərəcəyinə əminliyini ifadə edib.

Milli Məclisin Sədri Ermənistan Respublikasının minalanmış ərazilərin xəritələrini verməkdən imtina etməsinin qınanmasının, azad olunmuş ərazilərin bərpası və məcburi köçkünlərin doğma yurdlarına qaytarılması səylərində Azərbaycanla həmrəylik göstərilməsinin vacibliyindən də danışıb.

Görüşdə çıxış edən Pakistan parlamentinin Sədri Əsəd Qeysər 44 günlük Vətən müharibəsində qazanılan Qələbə münasibətilə Azərbaycan xalqını təbrik edib. Bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqının qələbəsi Pakistanda da qeyd edilib.

Əsəd Qeysər deyib ki, parlament sədrlərinin üçtərəfli görüş formatı yaxşı fürsət yaradır. O, bu fürsətdən səmərəli istifadə etmək üçün bir sıra təkliflərini diqqətə çatdırıb. Ə.Qeysər ticarət, turizm, insan resurslarından istifadə sahələrində əməkdaşlığın vacibliyindən danışıb. Bildirib ki, Pakistanda Azərbaycan və Türkiyə mədəniyyət mərkəzlərinin yaradılması, birgə sənədli filmlərin çəkilməsi, tələbə mübadiləsinin həyata keçirilməsi çox faydalı olardı.

Sonra çıxış edən Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentop üç qardaş ölkənin parlament sədrlərinin ilk dəfə Bakıda keçirilən üçtərəfli formatda görüşünü yüksək qiymətləndirib. Bildirib ki, ölkələrimiz və bölgəmizə təhdidləri dəf etmədən inkişaf mümkün deyil. O, müdafiə, nəqliyyat, ticarət, enerji, təhsil sahələrində fəaliyyətin üçlü əməkdaşlığın təməl daşları olduğunu düşündüyünü deyib. TBMM-nin Sədri Şuşa Bəyannaməsini bu yolda atılmış bünövrə sayılacaq addım adlandırıb. Mustafa Şentop Bakı Bəyannaməsinin də əhəmiyyətini qeyd edib, Ermənistanın Azərbaycanın sülh anlaşması çağırışına cavab verməsinin vacibliyindən danışıb.

Sonra Milli Məclisin Sədri Sahibə Qafarova, Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentop və Pakistan İslam Respublikası Milli Assambleyasının Sədri Əsəd Qeysər Bakı Bəyannaməsini imzalayıblar. Milli Məclisin Sədri Sahibə Qafarova bildirib ki, bu sənəd ölkələrimiz arasında strateji əlaqələrin möhkəmlənməsinə öz töhfəsini verəcək.

Bununla da Azərbaycan, Türkiyə, Pakistan parlament sədrlərinin birinci üçtərəfli görüşü başa çatıb.

# Əli ƏHMƏDOV: “Bu gün Azərbaycan və Türkiyə dövlətləri tarixlərinin ən şərəfli dövrünü yaşayır”

“Türkiyə-Azərbaycan qardaşlığı “bir millət, iki dövlət” prinsipi əsasında qurulub. Həm Türkiyə, həm də Azərbaycan xalqları bu formul əsasında yaşayırlar”.



AZƏRTAC xəbər verir ki, bu sözləri Türkiyənin hakim Ədalət və İnkişaf Partiyası (AK Parti) sədrinin birinci müavini Numan Kurtulmuşla görüşdə Azərbaycan Respublikasının Baş nazirinin müavini Əli Əhmədov deyib.

Baş nazirin müavini qeyd edib ki, 44 günlük Vətən savaşında bütün dünya Türkiyənin Azərbaycana dəstəyinin şahidi oldu. Bu dəstək, eyni zamanda, Türkiyənin qüdrətinin daha bir təsdiqi idi.

“Bu gün Azərbaycan və Türkiyə dövlətləri tarixlərinin ən şərəfli dövrünü yaşayır. Dövlətlərimiz arasındakı əlaqələrə Prezident İlham Əliyevin və Prezident Rəcəb Tayyib Ərdoğanın sıx dostluq münasibətləri böyük töhfə verir”, - deyə Əli Əhmədov qeyd edib. AK Parti sədrinin birinci müavini Numan Kurtulmuş Türkiyə-Azərbaycan əlaqələrinin yeni mərhələyə yüksəldiyini bildirib. O deyib: “Qarabağ Zəfəri təkcə erməni işğalına son qoymadı, həmçinin regionda yeni reallıqlar yaratdı. Bu Qələbə bizim üçün də qürur mənbəyidir. Bu Zəfərin miqyası qarşıdakı illərdə daha aydın görünəcək”.

# İqtisadiyyat naziri Mikayıl Cabbarov ABŞ-ın Oklahoma ştatının qubernatoru ilə görüşüb

Azərbaycan Respublikasının iqtisadiyyat naziri Mikayıl Cabbarov ABŞ-ın Oklahoma ştatının qubernatoru ilə görüşüb.



İqtisadiyyat Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə nazir Mikayıl Cabbarov ABŞ ilə iqtisadi-ticarət tərəfdaşlığının inkişafını qeyd edib, Azərbaycanın sosial-iqtisadi inkişafına dair milli prioritetləri və qarşıya qoyulan hədəflər, rəqəmsal iqtisadiyyat, kiçik və orta biznesin iqtisadiyyatda rolunun artırılması, nəqliyyat-tranzit potensialının gücləndirilməsi, dövlət müəssisələrinin fəaliyyətinin səmərəliliyinin artırılması istiqamətində həyata keçirilən sistemli tədbirlər barədə məlumat verib, iqtisadi əlaqələrin genişləndirilməsi potensialını vurğulayıb. Oklahoma ştatının qubernatoru Kevin Stitt ABŞ şirkətlərinin Azərbaycanda həyata keçirilən layihələrdə iştirak etmək niyyətini ifadə edib, iqtisadi əlaqələrin genişləndirilməsi istiqamətləri barədə fikirlərini bölüşüb.

Görüşdə əməkdaşlığın genişləndirilməsi, işğaldan azad edilmiş ərazilərimizin bərpasında ABŞ şirkətlərinin iştirakı, enerji, o cümlədən bərpaolunan enerji, kənd təsərrüfatı, texnologiyaların transferi istiqamətləri üzrə müzakirələr aparılıb, Ələt Azad İqtisadi Zonasının logistik imkanları barədə məlumat verilib.

# Mustafa ŞENTOP: “Türkiyə təmənnasız olaraq Azərbaycanın yanındadır”

“Bir millət, iki dövlət” şüarı ilə möhkəmlənən Türkiyə-Azərbaycan qardaşlığı hər zaman var olacaq.

AZƏRTAC xəbər verir ki, bu sözləri Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şentop jurnalistlərə müsahibəsində bildirib. Azərbaycan, Pakistan, Türkiyə parlament rəhbərləri ilk iclasının Bakıda keçiriləcəyini bildirən M.Şentop qeyd edib ki, bu barədə qərar İslamabadda qəbul olunub. O deyib ki, əvvəllər xarici işlər nazirləri səviyyəsində üçtərəfli platforma var idi. İndi bu platforma parlamentlər səviyyəsində yaradılır. Gələcəkdə isə dövlət rəhbərləri səviyyəsində üç ölkə arasında əlaqələrin daha da möhkəmləndirilməsinə xidmət edəcək beynəlxalq platforma, mexanizm yaranacaq. Ümid edirik ki, bu gün bu istiqamətdə önəmli addım atılacaq.

TBMM-in Sədri bildirib ki, Türkiyə, Pakistan, Azərbaycan arasında xüsusi birlik, dostluq, qardaşlıq mövcuddur. İkinci Qarabağ müharibəsində Türkiyə təmənnasız olaraq Azərbaycanın yanında yer aldı, öz siyasi və mənəvi dəstəyini verdi. Pakistan da Azərbaycana açıq dəstəyini ifadə edən ölkədir. Bu baxımdan dövlətlərimizin xüsusi birliyi, dostluğu var. Biz bunun platforma halına gəlməsini istəyirik.

# Dünya düzəni üçün əsl örnək

## Azərbaycanla Türkiyə arasındakı əlaqələr qarşılıqlı əməkdaşlığa, dostluğa, qardaşlığa əsaslanır

İyulun 27-də Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatında YAP İdarə Heyətinin üzvü, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova ölkəmizdə səfərdə olan AK Partinin Qadınlar Birliyinin sədri Ayşe Keşirlə görüşüb.

Qonaqları salamlayan Bahar Muradova bildirib ki, Azərbaycanla Türkiyənin qədim tarixi köklərə malik olan ənənələri və mədəniyyəti var: “Bu gün Azərbaycanla Türkiyə arasındakı əlaqələr qarşılıqlı əməkdaşlığa, dostluğa, qardaşlığa, hüquq bərabərliyinə əsaslanır. Bu çoxtərəfli əməkdaşlıq getdikcə yüksələn xətlə inkişaf etməkdədir”.

Əlaqələrimizdən bəhs edən Bahar Muradova bildirib ki, tarixin ən müxtəlif mərhələlərində dövlətlərimizin, xalqlarımızın maraqlarına uyğun münasibətlər qurulub.

B.Muradova böyük öndərlər Mustafa Kamal Atatürkün “Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimiz”, Heydər Əliyevin “Bir millət, iki dövlət” tezislərini önə çəkərək, bu fikirlərin bütün dövrlər üçün aktuallığını nəzərə çatdırıb.

Azərbaycanla Türkiyə arasında əlaqələrin yeni mərhələyə qədəm qoyduğunu bildirən B.Muradova qeyd edib ki, bu mərhələni şərtləndirən əsas sənəd iyun ayının 15-də imzalanan Şuşa Bəyannaməsidir: “Bu sənəd iki dövlətin hazırkı durumda qarşısına qoyduğu vəzifələri, hədəfləri özündə əks etdirir. O cümlədən xüsusi bir sənədi də vurğulamaq istəyirəm ki, bu da Şuşa Bəyannaməsindən və indiyədək iki dost ölkə arasındakı münasibətlərdən irəli gələrək partiyalarımız arasında imzalanan əməkdaşlıq protokoludur. Azərbaycan və Türkiyə arasında münasibətlərin inkişafına töhfələrimizi vermək üçün qarşılıqlı öhdəliklərimizi müəyyən etmişik. Bu öhdəliklərin də həyata keçirilməsi zəminində bütün səviyyələrdə əməkdaşlığı ortaya qoymalıyıq. Qarşılıqlı səfərlər çərçivəsində atılan addımlar bu hədəflərə böyük töhfə olacaq”.

AK Partinin Qadınlar Birliyinin sədri Ayşe Keşir qonaqpərvərliyə görə təşəkkürünü bildirib. O, Azərbaycanla Türkiyə arasında mövcud münasibətlərin dünya düzəni üçün bir örnək olduğunu vurğulayıb. A.Keşir Azərbaycanın Zəfərindən böyük qürur hissi keçirdiyini, Şuşa Bəyannaməsinin imzalanması mərasimində iştirakından məmnunluğunu ifadə edib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da geniş fikir mübadiləsi aparılıb.

***Ülkər XASPOLADOVA,***
***“Azərbaycan”***

# Dostluq, qardaşlıq münasibətləri yüksələn xətlə inkişaf edir

## Türkiyə və Azərbaycan gəncliyi bu əlaqələrə layiqli töhfələr vermək əzmindədir

İyulun 27-də Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatında YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov ölkəmizdə səfərdə olan Türkiyənin Ədalət və İnkişaf Partiyasının Gənclər Birliyinin sədri Eyyüp Kadir İnanla görüşüb.

Görüşdə YAP Gənclər Birliyinin sədri Azərbaycan və Türkiyənin hakim partiyalarının gənclər təşkilatları arasında əlaqələrin mövcud durumu və gələcək inkişafı ilə bağlı fikirlərini bildirib. Ötən ay Yeni Azərbaycan Partiyasının nümayəndə heyətinin Ankaraya səfəri çərçivəsində keçirilən görüşü xatırladan B.İslamov bu görüşlərdə aparılan müzakirələrin əhəmiyyətindən bəhs edib.

“YAP və AK Partinin gənclər təşkilatlarının münasibətləri uğurla inkişaf edir. YAP və AK Parti gənclərinin birgə fəaliyyətinin əsas məqsədi Prezident İlham Əliyevin də vurğuladığı kimi, gənclərimizin bir-birinə daha da yaxınlaşması, vahid amal ətrafında birləşməsi olmalıdır. İnanırıq ki, bu dostluq və qardaşlıq münasibətləri gələcək nəsillərə də miras kimi qalacaqdır”, - deyə YAP Gənclər Birliyinin sədri vurğulayıb.

Türkiyənin Ədalət və İnkişaf Partiyası Gənclər Birliyinin sədri Eyyüp Kadir İnan Azərbaycana səfərdən məmnunluğunu ifadə edib, hər iki ölkənin qardaşlıq münasibətlərinin yüksələn xətlə inkişaf etdiyini vurğulayıb. Onun sözlərinə görə, Türkiyə və Azərbaycan gəncliyi bu əlaqələrə layiqli töhfələr vermək əzmindədir.

Görüşdə Azərbaycan və Türkiyənin dövlət başçılarının gənclər qarşısında qoyduğu vəzifələrin, müvafiq tövsiyələrinin yerinə yetirilməsi istiqamətində görüləcək işlər, eləcə də birgə layihələrin həyata keçirilməsi ilə bağlı ətraflı fikir mübadiləsi aparılıb. Qeyd olunub ki, YAP və AK Partinin gəncləri tərəfindən həm beynəlxalq platformalarda vahid mövqedən çıxış etmək, həm də dünyanın müxtəlif ölkələrində yaşayan türk və azərbaycanlı gənclərlə milli maraqlarımızın, ortaq dəyərlərimizin qorunması və təbliği istiqamətində fəal iş aparmaq qarşıda dayanan əsas vəzifələrdən biridir.

Görüşdə YAP və AK Partinin gənclər təşkilatları arasında gələcək əməkdaşlıq məsələləri ilə bağlı fikir və təkliflər diqqətə çatdırılıb.

Sonra qarşılıqlı hədiyyələr təqdim olunub.

***Aydan XƏLİLOVA,***
***“Azərbaycan”***

# Azərbaycanın xarici işlər naziri ABŞ-ın Oklahoma ştatının qubernatoru ilə görüşüb

İyulun 27-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ABŞ-ın Oklahoma ştatının qubernatoru Kevin Stittin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, Oklahoma qubernatorunu səmimiyyətlə salamlayan nazir Ceyhun Bayramov Azərbaycanla ABŞ arasındakı qarşılıqlı faydalı əməkdaşlıqdan bəhs edib. ABŞ-ın bugünədək Azərbaycanın təşəbbüskarı və iştirakçısı olduğu önəmli layihələri, o cümlədən enerji layihələrini dəstəklədiyini qeyd edən nazir ölkəmizin sülhməramlı əməliyyatlarda iştirakı, tərəflər arasında sərhəd təhlükəsizliyi, humanitar və digər sahələrdə əməkdaşlıq barədə məmnunluqla danışıb.

Oklahoma qubernatoru Kevin Stitt Azərbaycana səfərindən məmnunluğunu ifadə edib. O, Azərbaycan Respublikasının Prezidenti ilə görüşünün çox yaxşı keçirdiyini qeyd edib. Səfər çərçivəsində rəsmi görüşlərlə yanaşı, bölgələrə getmək fürsətinin də olacağını bildirən qubernator, habelə konkret sahələrdə əməkdaşlıq, investisiya perspektivlərini də nəzərdən keçirmək imkanını qeyd edib. Ceyhun Bayramov qarşı tərəfə Ermənistanın Azərbaycana qarşı təcavüzkar siyasətinin tarixi, beynəlxalq ictimaiyyətin bu xüsusda mövqeyi, 2020-ci il 10 noyabr üçtərəfli Bəyanatının imzalanmasından sonra bölgədəki mövcud vəziyyət, işğaldan azad edilmiş ərazilərdəki dağıntıların miqyası, mina təhlükəsi, sərhəd məntəqəsində gərginliyin səbəbləri, azad olunmuş ərazilərdə həyata keçirilən bərpa və yenidənqurma işləri barədə ətraflı məlumat verib.

Qarşı tərəfə, həmçinin bölgədə mövcud olan yeni reallıqlar şəraitində Azərbaycan və ABŞ arasında, o cümlədən kənd təsərrüfatı, mədən sənayesi, turizm, alternativ enerji və digər sahələrdə əməkdaşlıq imkanları barədə məlumat təqdim edilib.

Görüşdə, habelə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Azərbaycan-Serbiya biznes forumu keçirilib





Azərbaycan Respublikası ilə Serbiya Respublikası arasında ticarət və iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın 6-cı iclası çərçivəsində Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondunun (AZPROMO) təşkilatçılığı ilə Azərbaycan-Serbiya biznes forumu keçirilib.

AZƏRTAC xəbər verir ki, iki ölkənin rəsmiləri ilə yanaşı, forumda Azərbaycan və Serbiyanın iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərən şirkətləri iştirak edib.

Forumun əvvəlində Azərbaycanda qeyri-neft sektorunun, sahibkarlığın inkişafı, biznes və investisiya mühitinin yaxşılaşdırılması istiqamətində görülən ardıcıl və məqsədyönlü işlər, əldə olunan uğurlu nəticələr barədə məlumat verilib.

Serbiyanın Ticarət və Sənaye Palatası prezidentinin müşaviri Srdjan Popovic ölkəsinin Azərbaycanla münasibətlərinin inkişafından bəhs edib və pozitiv dinamika ilə paralel olaraq iki ölkənin iş adamları arasında əlaqələrin də genişlənməkdə olduğunu diqqətə çatdırıb.

Biznes forumda Azərbaycan tərəfindən Ələt Azad İqtisadi Zonası İdarə Heyətinin sədri Valeh Ələsgərov Azad İqtisadi Zonaya dair ətraflı təqdimatla çıxış edərək bu zonanın investorlar üçün mühüm əhəmiyyətini diqqətə çatdırıb. Eləcə də serbiyalı iş adamları təqdimatlar ediblər.

Azərbaycan ilə Serbiya arasında ticarət və iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın Azərbaycan tərəfindən həmsədri, əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev iki ölkənin dövlət başçılarının səyləri, imzaladıqları mühüm sənədlər nəticəsində Azərbaycan-Serbiya əlaqələrinin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini, əməkdaşlıq gündəliyinin getdikcə genişləndiyini deyib. İki ölkənin ticarət dövriyyəsində ötən il 6,3 faiz, bu ilin yanvar-may aylarında 55,4 faiz artım olduğunu qeyd edib.

Nazir əməkdaşlığın daha geniş miqyas alması üçün böyük potensialın mövcud olduğunu diqqətə çatdırıb. Həmin potensiala uyğun olaraq və qarşılıqlı səylər nəticəsində əlaqələrin qarşıdakı dövrdə daha da inkişaf edəcəyinə əminliyini bildirib. Hökumətlərarası Komissiyanın iyulun 27-də keçirilən 6-cı iclasının, iclasın yekunlarına dair imzalanmış Protokolun da qeyd edilən istiqamətdə mühüm töhfə vermək məqsədi daşıdığını bildirib.

Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun Qələbəsini, ərazilərimizin Ermənistanın işğalından azad edildiyini bildirən S.Babayev bildirib ki, Ermənistan tərəfindən dağıdılmış həmin ərazilərdə aparılan quruculuq işlərində dost ölkələrin iştirakı bu gün ölkəmiz üçün prioritet əhəmiyyət kəsb edir.

Nazir Serbiya şirkətlərinin də bu prosesə fəal şəkildə qatılacağına ümidvar olduğunu bildirib. O, Azərbaycanda əlverişli biznes mühitinin mövcud olduğunu qeyd edib. Ölkəmizdə dayanıqlı iqtisadi inkişafın təmin olunması, qeyri-neft sektorunun genişlənməsi istiqamətində əldə olunan irəliləyişləri diqqətə çatdırıb. Yaradılmaqda olan Ələt Azad İqtisadi Zonasının da qeyri-neft sektoru üzrə investorlar üçün cəlbedici olacağını deyib.

S.Babayev iki ölkənin iş adamları arasında biznes forumların, bu görüşlərdə qarşılıqlı maraq doğuran təqdimatların əlaqələrin daha da genişlənməsi, yeni əməkdaşlıq istiqamətlərinin formalaşması baxımından xüsusi əhəmiyyət kəsb etdiyini vurğulayıb.

Serbiya tərəfindən həmsədr, xarici işlər naziri Nikola Selakoviç ölkəsinin Azərbaycanla əlaqələrin inkişafına xüsusi önəm verdiyini və ikitərəfli əməkdaşlığın genişlənməkdə olduğunu, bu prosesdə iş adamlarının da fəal rola malik olduqlarını deyib. O, keçirilən belə görüşlərin işgüzar əməkdaşlıq üçün mövcud imkanları müzakirə etməyə, faydalı nəticələrə imkan yaratdığını bildirib.

Serbiya şirkətlərinin nümayəndələri ilə gələcək əməkdaşlıq məsələlərinə dair fikir mübadilələri aparılıb.

# Türkiyənin Ədalət və İnkişaf Partiyasının nümayəndə heyəti Gəncədə Ermənistanın müharibə cinayətlərinin izləri ilə tanış olub

Türkiyənin Ədalət və İnkişaf Partiyasının (AKP) sədrinin birinci müavini Numan Kurtulmuşun rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizə səfəri çərçivəsində iyulun 27-də Gəncədə səfərdə olub.





AZƏRTAC xəbər verir ki, səfərin məqsədi Yeni Azərbaycan Partiyası (YAP) və AKP arasında ikitərəfli Əməkdaşlıq Protokoluna müvafiq olaraq, “Şuşa Bəyannaməsi: milli-mənəvi dəyərlərimizə sadiqlik və gələcək əməkdaşlıq üçün yeni çağırışlar” mövzusunda konfransın keçirilməsidir.

Qonaqlar ötən ilin oktyabrında Gəncədə erməni terroru nəticəsində çoxlu sayda mülki şəxsin öldüyü, yaralandığı və böyük dağıntıların yarandığı əraziyə gəliblər. Məlumat verilib ki, işğalçı Ermənistanın silahlı qüvvələri beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il Cenevrə konvensiyalarını və onların Əlavə protokollarını, habelə özlərinin israrlı xahişləri əsasında Moskvada keçirilmiş görüşün yekunu olaraq razılaşdırılmış humanitar atəşkəs rejiminin tələblərini pozaraq Azərbaycanın dinc əhalisini qəsdən hədəfə almaqla yaşayış məntəqələrini ağır artilleriyadan atəşə tutub.

Diqqətə çatdırılıb ki, düşmənin Azərbaycanın ikinci böyük şəhəri, yarım milyon əhalisi olan və münaqişə zonasından 100 kilometrdən artıq məsafədə yerləşən Gəncə şəhərinə raket hücumları nəticəsində aralarında qadın və uşaqlar da olmaqla 26 mülki şəxs həlak olub, 142 nəfər isə yaralanıb. Şəhərdə mülki infrastruktur obyektlərinə, tarix-mədəniyyət abidələrinə, o cümlədən nəqliyyat vasitələrinə külli miqdarda ziyan dəyib.

Qeyd olunub ki, əhalinin sıx yaşadığı ərazilərə “Toçka-U”, “Smerç”, “Skad” və digər raketlərlə gecə saatlarında hücumun həyata keçirilməsi çoxlu sayda dinc insanın qətlə yetirilməsi məqsədi daşıyıb. Baxmayaraq ki, dinc vətəndaşların məqsədyönlü şəkildə hədəfə alınması insanlığa qarşı cinayətdir, Ermənistan beynəlxalq hüquqa məhəl qoymadan müharibə cinayətlərini davam etdirib.

Numan Kurtulmuş və nümayəndə heyətinin üzvləri həlak olan dinc sakinlərin xatirəsinə ehtiram əlaməti olaraq, erməni terroru nəticəsində dağıdılmış yaşayış binasının ətrafına gül dəstələri düzüblər.

Qonaqları şəhər rəhbərliyi, Milli Məclisin deputatları və digər rəsmi şəxslər müşayiət ediblər.

# Yüksəliş və quruculuq nümunəsi

Əvvəli 1-ci səh.

## Son altı ayın sosial-iqtisadi göstəriciləri müsbət məqamlarla zəngindir



***Adil ƏLİYEV:***
*Milli Məclis Sədrinin müavini, Gənclər və idman komitəsinin sədri:*

- Prezident İlham Əliyevin bölgələrə ardıcıl səfərləri, hər səfərindən sonra həmin rayonların sosial-iqtisadi inkişafının daha da sürətləndirilməsi məqsədilə müvafiq tədbirlərin görülməsi ölkəmizin regionlarının davamlı inkişafında mühüm rol oynayır. Təbii ki, bu səfərlər həm də regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarında nəzərdə tutulan işlərin icrası ilə yerində tanış olmaq baxımından da mühüm əhəmiyyət kəsb edir.

Ölkəmizdə qeyri-neft sektorunun inkişafı baxımından regionların davamlı inkişafı xüsusi önəm daşıyır. Belə ki, regionların kənd təsərrüfatı, turizm, dağ-mədən sənayesi və digər sahələr üzrə potensialından daha da səmərəli istifadə olunması iqtisadiyyatımızın qeyri-neft sektorundan asılılığını minimuma endirməklə ölkəmizin dayanıqlı inkişafını təmin edəcək. Prezident İlham Əliyevin Daşkəsənə, Naftalana və Goranboya səfəri çərçivəsində açılışını etdiyi obyektlər də ölkəmizdə bu istiqamətdə həyata keçirilən genişmiqyaslı siyasətin bariz göstəricisidir. Bu səfər zamanı Daşkəsəndə su təchizatı və kanalizasiya sistemlərinin, Goranboyda yeni yolun istismara verilməsi, Naftalanda körpələr evinin açılması sosial sahənin inkişafının daim dövlətin diqqət mərkəzində olduğunu nümayiş etdirir.

Prezident İlham Əliyev səfər çərçivəsində Azərbaycan Televiziyasına verdiyi müsahibədə də bu istiqamətlərdə bütün işlərin plan üzrə getdiyini və regionların sosial-iqtisadi inkişafı dövlət proqramının icra edildiyini bir daha diqqətə çatdırdı. Dövlət başçısı həmçinin cari ilin ilk altı ayının sosial-iqtisadi yekunlarına ətraflı nəzər saldı və bir sıra önəmli məqamları xüsusi qeyd etdi.

Hazırkı reallıqlar fonunda bütün dünyada iqtisadi tənəzzülün müşahidə olunduğu bir vaxtda Azərbaycan iqtisadiyyatında 2 faiz, qeyri-neft sektorunda isə 5 faiz artımın olması çox yaxşı göstəricidir və görülən səmərəli işlərin təzahürüdür. Valyuta ehtiyatlarımızın 1 milyard dollar artması isə xüsusi diqqətçəkən məqamdır. Nəzərə alaq ki, hazırda işğaldan azad edilmiş ərazilərdə böyük quruculuq işləri aparılır, pandemiyanın iqtisadiyyatımıza mənfi təsirləri olub. Buna baxmayaraq, valyuta ehtiyatlarımızda 1 milyard dollar artım olub ki, bu da iqtisadi siyasətimizin doğru istiqamətdə olduğunu göstərir. Bir sözlə, Cənubi Qafqaz iqtisadiyyatında 60 faiz paya malik olan və güclü iqtisadiyyat formalaşdıran Azərbaycanda son altı ayın sosial-iqtisadi göstəricilərinə baxarkən kifayət qədər pozitiv meylləri görmək mümkündür.

Dövlət başçısı müsahibəsində digər mühüm məqamlara da toxundu, işğaldan azad edilmiş ərazilərdə aparılan quruculuq işləri, Şərqi Zəngəzurun və Qarabağın yenidən dirçəldilməsi istiqamətində görülən işlər barədə ölkə ictimaiyyətinə ətraflı məlumat verdi.

Azad olunmuş torpaqlarımızda görülən işlərdə vətəndaşlarımızın rəyinin nəzərə alınması və ictimaiyyətin oradakı işlərlə bağlı mütəmadi məlumatlandırılması çox müsbət amil kimi dəyərləndirilir. Bu gün minatəmizləmə işləri ilə bərabər, enerji təsərrüfatının, yol infrastrukturunun qurulması istiqamətində də mühüm işlər görülür. Prezident İlham Əliyev cari ilin sonuna qədər azad edilmiş torpaqlarda bütün elektrik təsərrüfatının qurulacağını, 200 meqavatlıq günəş elektrik stansiyasının xarici şirkətin vəsaiti hesabına tikintisi ilə bağlı razılığın əldə olunduğunu bəyan etdi.

Bu gün yaşadığımız postmüharibə dövründə kifayət qədər çağırışlar mövcuddur. Azərbaycan postmüharibə dövrünün gündəliyinin böyük qismini müəyyən edir. Düşünülmüş siyasət, hücum diplomatiyamız, vaxtında atılmış addımlar sayəsində ölkəmiz müharibədən sonrakı vəziyyətə də tam nəzarət edir və bütün işlər uğurla aparılır. Bununla yanaşı, Ermənistanın özündə belə siyasi gündəliyin müəyyən hissəsi məhz Azərbaycan tərəfindən formalaşdırılır. Bu gün nəinki regionda, hətta artıq dünya miqyasında ən çox danışılan mövzulardan biri də Zəngəzur dəhlizinin açılması məsələsidir. Azərbaycan Televiziyasına müsahibəsi zamanı Prezident İlham Əliyev Zəngəzur dəhlizinin açılmasına mane olmaq istəyən müxtəlif qüvvələrə də qəti mövqeyimizi açıq və birmənalı şəkildə çatdıraraq dedi: "...Bizim mövqeyimiz dəyişməz olaraq qalır və Zəngəzur dəhlizi mütləq açılmalıdır. Ermənistan bunu nə qədər tez dərk etsə, onlar üçün o qədər də yaxşıdır". Əlbəttə ki, bu dəhlizin açılması Ermənistan da daxil olmaqla bölgənin inkişafına, region xalqlarının maraqlarına xidmət edəcək. Həmçinin yeni regional əməkdaşlıq formatı üçün əlverişli zəmin yaradacaq. Ona görə də bu dəhlizin və digər kommunikasiyaların açılması Ermənistandakı hazırkı ağır və acınacaqlı vəziyyətdən yeganə çıxış yoludur. Təəssüf ki, Ermənistan rəhbərliyi və bəzi qüvvələr hələ də bunu dərk etmək istəmirlər.

Təbii ki, müharibədən sonra sülh danışıqlarının başlanması, kommunikasiyaların açılması gözlənilən idi. Azərbaycan dəfələrlə ən yüksək səviyyədə buna hazır olduğunu bəyan edib. Lakin hələ də yeni reallıqlarla barışmaqda çətinlik çəkən Ermənistan müxtəlif bəhanələrlə bu prosesdən yayınır, bu ölkədəki siyasi qüvvələr pozuculuq fəaliyyətlərini davam etdirmək istəyirlər. Prezident İlham Əliyev müsahibəsində Ermənistanda bu cür düşünənlərə statusun yerini xatırladaraq xəbərdarlıq etdi: "Ermənistan bununla hesablaşmalıdır, yeni reallıqları qəbul etməlidir - istəsə də, istəməsə də. Heç vaxt unutmamalıdır ki, dəmir yumruq yerindədir".

## Azərbaycan postmüharibə dövrünü yüksək uğurlarla başa vuracaq

***Könül NURULLAYEVA,***
*Milli Məclisin deputatı:*

- İkinci Qarabağ savaşını Qələbə ilə başa vuran Azərbaycanın postmüharibə prioritetlərinə uyğun olaraq işğaldan azad edilmiş bütün torpaqlarımızda yenidənqurma işləri davam edir. Cənab Prezident İlham Əliyevin işğaldan azad edilmiş rayonlarımıza dəfələrlə səfər etməsi göstərir ki, dağıdılmış şəhər və kəndlərimizin yenidən qurulması, Qarabağın infrastrukturunun kompleks bərpası, bütövlükdə Böyük Qayıdışla bağlı hər bir layihənin icrası dövlət başçısının xüsusi diqqətindədir və 30 ilə yaxın düşmən tapdağında qalmış torpaqlarımız ən qısa zamanda dirçələcək.

Ötən həftənin əsas hadisələrindən biri Prezident İlham Əliyevin Daşkəsən, Goranboy rayonlarına, Naftalan və Gəncə şəhərlərinə səfəri oldu. Bu səfər, ilk növbədə, ondan xəbər verdi ki, azad edilmiş torpaqlarımızın bərpası ilə yanaşı, regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramının icrası ilə bağlı qarşıya qoyulmuş vəzifələrin icrası da diqqət mərkəzindədir. Azərbaycan Televiziyasına müsahibəsində Prezident İlham Əliyevin dediyi kimi: "Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı icra edilir. Əlbəttə, İkinci Qarabağ müharibəsindən sonra bizim əsas diqqətimiz azad edilmiş torpaqlaradır. Ancaq bizim ənənəvi işlərimiz, regionlarla bağlı olan proqramlar da yaddan çıxmamalıdır və çıxmır".

Səfər zamanı dövlət başçısının iştirakı ilə Daşkəsən şəhərinin yenidən qurulan su təchizatı və kanalizasiya sistemlərinin istismara verilməsi, Naftalanda 200 yerlik körpələr evi-uşaq bağçasının və mərkəzi sanatoriyanın açılışı, Goranboyda Əlirzalı-Xan Qərvənd-Səfikürd-Tapqaraqoyunlu avtomobil yolunun və Olimpiya İdman Kompleksinin açılışı, Daşkəsəndə qızıl hasilatı ilə bağlı görülən işlərlə tanışlıq regionların sosial-iqtisadi inkişafı, ölkədə qeyri-neft sektorunun yüksəlişi istiqamətində müəyyən olunmuş vəzifələrin uğurla və vaxtında icra olunduğunu göstərdi. Bu səfər zamanı təsdiqini tapan başqa bir həqiqət də odur ki, Azərbaycan üçün xarakterik olan inkişaf və keyfiyyət göstəriciləri çətin dönəmlərdə belə ləngiməyib. Ağır müharibədən keçən, pandemiya dövrünün yaratdığı iqtisadi çətinliklərlə üzləşən Azərbaycanda əvvəldən müəyyən edilmiş bütün sosial və infrastruktur layihələri tam həcmdə yerinə yetirilir və heç bir axsamadan söhbət gedə bilməz. Ən həssas dönəmlərdə belə heç bir sosial layihənin təxirə salınmaması, regional inkişafa xidmət edən proqramın icrasının davam etdirilməsi Prezident İlham Əliyevin sosial-iqtisadi inkişaf kursunun uğurlarıdır.

Onu da qeyd edim ki, dövlət başçısının səfər etdiyi bu şəhərlər və rayonlar cəbhə xəttindən uzaqda yerləşmələrinə baxmayaraq, 44 günlük müharibə zamanı terrorçu mahiyyətini bir daha bürüzə verən Ermənistan tərəfindən davamlı şəkildə ağır bombardmanlara, raket atəşlərinə məruz qalmışdılar. Aralarında uşaqların, qadınların və yaşlı insanların olduğu günahsız mülki vətəndaşlarımız Ermənistanın müharibə cinayətlərinin qurbanı oldular, minlərlə ev, çoxsaylı inzibati bina dağıdıldı. Amma bütün bunlar həmin şəhərlərdə və rayonlarda yaşayan mərd insanlarımızı qorxutmadı. Öz cəsarətləri ilə onlar qəhrəmanlıq nümunələri yaratdılar və bütün bunlar təbii ki, düşmən üzərində qələbəmizin qazanılmasında mühüm amillərdən biri oldu.

İndi bu şəhərlərin və rayonların hər birində erməni faşizminin izi qalıb. Prezident İlham Əliyev respublikamızın qərb bölgəsinə səfəri zamanı Gəncədə Ermənistanın günahsız mülki insanlara qarşı həyata keçirdiyi raket hücumlarının səbəb olduğu cinayət səhnələri ilə də tanış oldu. Dövlət başçısının dağılmış yaşayış binalarının ətrafına gül düzməsi həlak olan dinc vətəndaşlarımızın xatirəsinə ehtiramın ali nümunəsidi.

Hazırda dövlətimiz postmüharibə dövrünün çağırış və tələblərinə uyğun olaraq öz hədəflərini müəyyən edir. Azərbaycan televiziyasına müsahibəsində bu barədə danışan Prezident İlham Əliyevin dediyi kimi, "Postmüharibə dövründə biz cəld tərpəndik, fəallıq göstərdik, öz gündəliyimizi qəbul etdirdik və indi bu gündəlik əsasında işlər gedir". Postmüharibə dövrünün gündəliyi isə çoxşaxəlidir. Bu gündəlik üçtərəfli Bəyanatın icrası, Qarabağın bərpası, Fransanın və qərbin bəzi siyasi dairələrinin Azərbaycanın haqq işinə kölgə salmağa yönəlmiş cəhdlərinin qarşısının alınması kimi məsələləri əhatə edir.

Müharibədən sonra ötən ayların mənzərəsi bütün məqsəd və vəzifələrin yerinə yetirilməsi baxımından ürəkaçandır. Bu sırada iqtisadiyyatımızın 2021-ci ilin ötən dövrü ərzində 2 faiz artması olduqca mühüm göstəricidir. Bütün bunlar təsdiqləyir ki, möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan öz hədəflərinə doğru inamla addımlayır və dövlətimiz postmüharibə dövrünü də böyük uğurlarla başa vuracaq.

## Məqsəd əhalinin sosial rifahını daha da yaxşılaşdırmaqdır

***Rəşad MAHMUDOV,***
*Milli Məclisin deputatı:*

- Prezident İlham Əliyevin ölkəmizin qərb bölgəsinə - Daşkəsən, Goranboy rayonlarına, Naftalan şəhərinə səfəri bir daha göstərdi ki, regionların inkişafı ölkədə uğurla həyata keçirilən davamlı sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsidir. Regionların inkişafı sahəsində qəbul edilən və yüksək səviyyədə gerçəkləşdirilən dövlət proqramlarında, habelə regionların sosial-iqtisadi inkişafına dair əlavə tədbirlərlə bağlı sərəncamlarda nəzərdə tutulan vəzifələrin icrası respublikada qeyri-neft sektorunun davamlı inkişafına, sosial infrastruktur təminatının yüksəldilməsinə, yeni müəssisələrin, iş yerlərinin açılmasına və nəticədə əhalinin məşğulluğunun artırılmasına, yoxsulluq səviyyəsinin azaldılmasına təkan verib.

Dövlət başçısının Goranboy Olimpiya İdman Kompleksinin açılışında iştirak etməsi ölkəmizdə gənclərə asudə vaxtlarını daha səmərəli keçirmələri üçün geniş imkanlar yaradılmasından, Daşkəsən şəhərinin yenidən qurulan su təchizatı və kanalizasiya sistemlərinin istismara verilməsi əhalinin sosial şəraitinin yaxşılaşdırılmasının diqqət mərkəzində saxlanılmasından, Naftalan Mərkəzi Sanatoriyasının fəaliyyətə başlaması turizm sənayesinin inkişafından, şəhərdə 200 yerlik körpələr evi-uşaq bağçasının tikintisinin başa çatdırılmasının isə son illərdə paytaxtla yanaşı, bölgələrimizdə də məktəbəqədər təhsil sahəsində əvvəllər mövcud olan çatışmazlıqların aradan qaldırılmasından xəbər verir. Prezident İlham Əliyevin ölkəmizin qərb bölgəsinə səfəri çərçivəsində açılışlarında iştirak etdiyi müəssisələrin istifadəyə verilməsi bir daha göstərir ki, regionların inkişafını şərtləndirən sosial məsələlərin həllinə xüsusi önəm verilir, insan amili daim diqqət mərkəzində saxlanılır, bu sahəyə xidmət edən sosial infrastrukturun yaxşılaşdırılması prioritet xarakter daşıyır.

Regional inkişaf sahəsində beynəlxalq təcrübələrin təhlili göstərir ki, müasir dövrdə bu istiqamətdə həyata keçirilən siyasətin paradiqması dəyişir. Belə ki, köhnə paradiqmada əsas problem kimi gəlirlər, məşğulluq, fiziki və bazar infrastrukturu üzrə regional fərqlər önə çəkilirdisə, yeni paradiqmada regionların potensialından istifadənin səmərəliliyinin və iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin daha da artırılması, yaşıl iqtisadiyyatın formalaşması, innovativ yanaşmaların tətbiqi kimi məsələlərə daha çox diqqət yetirilir. Hazırda Azərbaycanda da bu məsələyə xüsusi əhəmiyyət verilir. Belə ki, qeyd olunan paradiqma dəyişikliyi prizmasına əsaslanaraq, regionların inkişafının planlaşdırılmasında və həyata keçirilməsində yerli idarəetmə, o cümlədən yerli özünüidarəetmə orqanlarının, kənd icmalarının daha fəal cəlb olunması yolu ilə hər bir vətəndaşın həyat səviyyəsinin yaxşılaşdırılması sahəsində tədbirlər reallaşdırılır.

Əgər son altı ayın iqtisadi göstəricilərinə nəzər salsaq görərik ki, ölkə iqtisadiyyatı 2 faiz artıb. Bu, yaxşı göstəricidir. Xüsusilə dünyada gedən proseslərə nəzər saldıqda görürük ki, dünya ölkələrinin böyük əksəriyyəti hələ ki, iqtisadi tənəzzüldədir. Azərbaycan iqtisadiyyatı isə artır və əminəm ki, ilin sonuna qədər daha da artacaq.

Dövlət başçısı müsahibəsində cari ilin ötən altı ayı ərzində ölkəmizin sosial-iqtisadi yekunlarını ifadə edən digər göstəriciləri də xatırlatdı. Bildirdi ki, qeyri-neft sektoru 5 faizdən çox, qeyri-neft sənayesi 16,6 faiz yüksəlib. Bütün bunlarla bərabər, bu dövrdə valyuta ehtiyatları 1 milyard dollar həcmində artıb. Xarici ticarətdə müsbət saldo 3,4 milyard dollar təşkil edib.

- İkinci Qarabağ savaşından sonrakı mövcud şərait beynəlxalq əməkdaşlıq formatının reallaşdırılmasını şərtləndirir. Buna görə də düşməndən təmizlənən ərazilərdə hazırda sosial infrastrukturun yenidən qurulması və əhalinin işlə təmin olunması üçün dövlət investisiyası ilə yanaşı, yerli və xarici investisiyalar da cəlb edilir. Böyük quruculuq işlərinə dost ölkələrin təşviq olunması siyasəti isə Azərbaycanın beynəlxalq aləmdə mövqeyini daha da möhkəmləndirir. Artıq bir sıra dost ölkələrin şirkətləri ilə respublikamızın özəl qurumları tərəfindən magistral və dəmir yollarının çəkilişi, infrastruktur layihələrinin birgə həyata keçirilməsi prosesi uğurla həyata keçirilir.

Lakin əsas çətinlik Ermənistan tərəfindən basdırılmış çoxsaylı minalardır. 2020-ci il noyabrın 10-da Ermənistan tərəfindən kapitulyasiya aktının imzalanmasından sonra mina partlaması nəticəsində 30-a yaxın Azərbaycan vətəndaşı həlak olub, 100 nəfərdən çox insan isə yaralanıb. Bundan əlavə, minalar azad olunmuş ərazilərdə yenidənqurma prosesini və məcburi köçkünlərin evlərinə qayıdışını ləngidir.

Belə geniş ərazilərin minalardan təmizlənməsi olduqca böyük zaman və resurs tələb edir. Düzdür, Ermənistandan mina xəritələrinin bir qismi alınıb. Lakin bu prosesin tez bir zamanda başa çatması üçün beynəlxalq ictimaiyyət işğalçını azad olunmuş bütün ərazilərin mina xəritələrini Azərbaycana verməyə məcbur etməlidir.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# "Karabakh.Center" layihəsi çərçivəsində fotosərgi açılıb






İyulun 27-də Qarabağ Dirçəliş Fondu uzun müddət ərzində davam edən erməni işğalı nəticəsində xalqımızın Qarabağda maddi-mədəni irsinə, bu regionun biomüxtəlifliyinə və təbii sərvətlərinə dəyən zərərə həsr olunmuş "Karabakh.Center" layihəsində yer alan fotoşəkillərdən ibarət sərgi təşkil edib.

AZƏRTAC xəbər verir ki, bir müddət əvvəl ictimaiyyətə təqdim olunan "Karabakh.Center" layihəsi Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Qarabağ Dirçəliş Fondu tərəfindən Ermənistan-Azərbaycan münaqişəsinin səbəbləri və Ermənistanın təcavüzünün nəticələri barədə obyektiv məlumatların sistemləşdirilməsi və geniş ictimaiyyətə çatdırılması məqsədilə yaradılıb.

Qarabağ Dirçəliş Fondunun İdarə Heyətinin sədri Rəhman Hacıyev fondun yaradılması, məqsəd və vəzifələri, fəaliyyət istiqamətləri barədə məlumat verərək bildirib ki, "Karabakh.Center" layihəsi Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə yaradılıb. Qeyd edib ki, biz artıq qalib ölkənin vətəndaşlarıyıq və hər birimiz Qarabağın dirçəldilməsi istiqamətində görülən işlərə dəstək olmalı, bu mühüm vəzifə ətrafında güclərimizi birləşdirməliyik.

"Karabakh.Center" internet resursunda 10 mindən çox foto və videogörüntülər əksini tapıb. Bütün fotoşəkillər və videolar saytın "Urbisid" bölməsində yerləşdirilib. Bölmədə həmçinin memarlıq abidələrinin işğaldan əvvəl çəkilmiş yüzlərlə fotoşəkli ilə də tanış olmaq mümkündür.

"Portalda tarixçilər, tədqiqatçılar, jurnalistlər tərəfindən münaqişə və Ermənistanın qeyri-qanuni fəaliyyəti haqqında 150 səhifəlik təhlillər və məqalələr əksini tapıb. Bundan əlavə, bu materiallar Azərbaycan və rus dillərində yerləşdirilib. Məqsədimiz bu materialları dünya ictimaiyyətinin diqqətinə çatdırmaqdır. Buna görə də onun sosial şəbəkələrdə geniş təbliğinə başlamışıq. Bu layihəni təqdim etməklə çox güman ki, həmvətənlərimizin səylərini Qarabağın bərpasına səfərbər edəcəyik. "Karabakh.Center" internet resursunun çoxsaylı materialları konkret nümunələr əsasında Azərbaycan xalqının Qarabağda maddi-mədəni irsinə, bu regionun biomüxtəlifliyinə və təbii sərvətlərinə dəyən ziyanın miqyası ilə tanış olmaq imkanı yaradır", - deyə Rəhman Hacıyev vurğulayıb.

O, Qarabağ həqiqətlərinin geniş ictimaiyyətə çatdırılmasına xidmət edən bu internet resursunun yaradılmasının təşəbbüskarı olan Mehriban xanım Əliyevaya göstərdiyi etimada, fəal dəstəyə görə isə Müşahidə Şurasının üzvlərinə minnətdarlığını bildirib.

Rəhman Hacıyev erməni işğalı nəticəsində xalqımızın Qarabağda maddi-mədəni irsinə, bu regionun biomüxtəlifliyinə və təbii sərvətlərinə dəyən zərərə həsr olunmuş fotosərginin əhəmiyyətindən danışaraq bu formada tədbirlərin mütəmadi şəkildə keçiriləcəyini bildirib.

O, həmçinin işğaldan azad edilmiş ərazilərdə çəkilmiş foto və videoların böyük bazasına çıxışı təmin edən Azərbaycan Dövlət İnformasiya Agentliyinə (AZƏRTAC) və "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-yə (AzTV) təşəkkür edib.

Milli Məclisin deputatı, Qarabağ Dirçəliş Fondunun Müşahidə Şurasının üzvü Fatma Yıldırım ermənilər tərəfindən Azərbaycan ərazilərində bütün infrastrukturun, sosial, iqtisadi, mədəni obyektlərin, tarixi və dini abidələrin tamamilə məhv edilməsi faktlarının əksini tapdığı "Karabakh.Center" portalının və Qarabağ həqiqətlərinin daha geniş kütləyə çatdırılmasında belə tədbirlərin önəmindən danışıb.

Fatma Yıldırım hər kəsi Azərbaycan dövlətinin qarşısında duran bərpa-yenidənqurma işlərində fəal iştirak etməyə və bu istiqamətdə görülən işlərə bu və ya digər formada dəstək olmağa dəvət edib. Erməni işğalı nəticəsində ərazilərimizə dəyən zərərin miqyasından danışan deputat postkonflikt dövrünün bərpasının böyük maliyyə vəsaiti və resursların səfərbərliyini tələb edən bir proses olduğunu vurğulayaraq, bu dövrdə dövlət - özəl sektor əməkdaşlığının, vətəndaşların səylərinin Qarabağın dirçəlişinə böyük töhfə verə biləcəyini deyib.

Qarabağ Dirçəliş Fondunun Fandreyzinq və kommunikasiya şöbəsinin rəhbəri Aybəniz İsmayılova abidələrin zənginliyi ilə seçilən, mədəniyyətimizin beşiyi hesab olunan Qarabağ bölgəsinin Ermənistanın işğalı nəticəsində orada olan bütün muzeylərin, məscidlərin, abidələrin dağıdılması barədə danışarkən, xalqımızın Birinci Qarabağ savaşında torpaqlarımızı itirməklə yanaşı, böyük bir sosioloji apokalipsis yaşadığını xüsusilə vurğulayıb. O qeyd edib ki, biz bu sosioloji kollapsı yalnız otuz ildən sonra, saysız ənənələrimiz, bizi biz edən etnik özəlliklərimiz, bölgəsəl yaşam tərzimiz əlimizdən çıxandan sonra görə bildik. Bu isə bir milyona yaxın insanın gündəlik, ənənəvi həyat tərzinin itirilməsi demək idi.

Aybəniz İsmayılova Ermənistanın ərazilərimizi işğal etməsinin nəticəsi olaraq, azərbaycanlıların bütün mülkiyyətlərindən və həyat tərzlərindən məhrum olması, məhz bu işğal nəticəsində insanların evini, ocağını tərk etməyə məcbur olması, otuz ilə yaxın müddətdə doğma torpaqlarından ayrı düşməsini qeyd edərkən, bu gün qalib ölkənin nümayəndələri kimi, hər şeyi daha gözəl formada bərpa etmək iqtidarında olmağımızdan danışıb. O, keçmişi unutmamaqla gözəl gələcək qurmaq üçün hər bir azərbaycanlını səfərbər olmağa çağırıb.

Qarabağ Dirçəliş Fondunun PR və kommunikasiya üzrə koordinatoru Pərvin Məmmədova bu mühüm vəzifədə fonda ianə edərək dəstək olmaq, bərpa və quruculuq prosesinin iştirakçısına çevrilmək istəyən şəxslərin rahatlıqla ödəniş edə bilməsi üçün "İanə et" funksiyasının əlavə olunduğu platformalar haqqında məlumat verib. İanə prosesini asanlaşdırmaq və bütün mümkün platformalara bu funksiyanı əlavə etmək istiqamətində işlərin davam etdirildiyini diqqətə çatdıran Pərvin Məmmədova bildirib ki, yeniliklər barədə ictimaiyyətə mütəmadi olaraq məlumat veriləcək. O qeyd edib ki, Prezident İlham Əliyevin fərmanı ilə yaradılan Qarabağ Dirçəliş Fondu bu işdə səylərin birləşdirilməsi üçün vahid və əlçatan platformadır.

Sonra tədbirdə fotosərgi ilə yanaşı, dağıdılmış binaları, yerlə yeksan olunan tarixi abidələri əks etdirən "Qarabağda Urbisid" adlı sənədli film və saytın təqdimat videosu nümayiş olunub.

# Azərbaycanda yeni növ koronavirus infeksiyasına 468 yeni yoluxma faktı qeydə alınıb

Azərbaycanda yeni növ koronavirus (COVID-19) infeksiyasına 468 yeni yoluxma faktı qeydə alınıb, 123 nəfər müalicə olunaraq sağalıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 2 nəfər vəfat edib. İndiyədək ölkədə ümumilikdə 341 min 183 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 332 min 259-u müalicə olunaraq sağalıb, 5 min 11 nəfər vəfat edib. Aktiv xəstə sayı 3 min 913 nəfərdir.

Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 11 min 895, ümumilikdə isə 3 milyon 992 min 592 test icra olunub.

Jurnalist araşdırması

# «Ağ ölüm»ün qara fəsadları

## Narkomaniyanın yayılmaması üçün, ilk növbədə, valideynlər məsuliyyətlərini artırmalı, övladlarını narkotik maddələrin təsiri altına düşməkdən qorumalıdırlar

**Artıq bir müddətdir ki, ölkədə "patı" və ya "şüşə" adlandırılan metamfetaminin geniş yayılması barədə məlumatlar dolaşır. Xaricdən gizli yolla gətirildiyi bildirilən bu narkotik vasitənin qiymətinin çox ucuz olması, satışının daha çox onlayn şəbəkələr üzərindən həyata keçirilməsi onları istifadəçilər üçün xeyli əlçatan edir.**

Ümumiyyətlə, metamfetaminin insanlara beynin fəaliyyətinin gücləndirməsi, orqanizmə enerji verməsi, arıqlaması üçün və s. bu kimi müxtəlif şirnikləndirici adlar altında təqdim edilməsi isə ona olan marağı artırır. Müvafiq qurumlar bu maddənin satışının və ölkədə yayılmasının qarşısının alınması üçün apardığı tədbirlər nəticəsində "patı" satan şəxsləri və qrupları aşkarlasa da, bu tədbirlər hələ ki, tam yetərli deyil.



### Uşaqları narkoman edən səbəblər

Hazırkı həssas dövrdə valideynlər də öz məsuliyyətlərini kifayət qədər artıraraq övladlarını narkotik maddələrin təsiri altına düşməkdən qorumalıdırlar. Onlar bəzi əlamətlərdən övladlarının narkotik maddədən istifadə etməsindən şübhələnə bilərlər. Məsələn, "patı" istifadə edənlər çox aqressiv olurlar. Belə şəxslərdə diqqət pozuntuları, nitqlərində problemlər yaranır. Metamfetaminin qəbulu insanda əqli zəiflik yaratmaqla yanaşı, onun əlil olmasına qədər gətirib çıxarır. Bu maddəni qəbul edənlərin müalicəsi uzun müddət davam etdirilməlidir. Belə şəxslər çox aqressiv olduqlarından onların xəstəxana şəraitində müalicəsi daha məqsədəuyğundur.

Araşdırmalara görə, ailə münasibətləri ilə yeniyetmələrin, gənclərin narkotik maddələrdən istifadəsi arasında müəyyən bağlılıq var. Ailə problemləri uşaqların narkomaniyaya meyilliyində mühüm rol oynayır. Psixi problemləri, narkotik maddələrdən asılılığı olan valideynlərin olduğu xaotik ailələr, düzgün olmayan tərbiyə üsulları, valideyn və uşaq arasında zəif bağlılıq, sevgisizlik və s. yetkinlik yaşına çatmayan uşaqların narkomanlara çevrilməsinə gətirib çıxaran səbəblərdir.

Tədqiqatlar zamanı bu nəticəyə gəlinib ki, ailə münasibətləri düzgün olmayan gənclər arasında narkotik maddələrdən istifadə halları daha çox yayılıb. Narkoman gənclərin əksəriyyətinin ailəsində bu maddələrdən istifadə edən şəxslər olur. Belə gənclərin valideynləri əksər hallarda uşaqlarına lazımi, qədər sevgi, qayğı göstərməyən, ona nəzarət etməyən və ailədaxili qaydaları olmayan ana-atalardır. Boşanmış, ayrı yaşayan, valideynlərdən birini itirən ailədən olan uşaqlar arasında bu cür maddələrin istifadəsi çoxdur.

Lakin nəzarətin də hədsiz çox olduğu ailənin uşaqlarında da narkotik maddəyə meyillilik halı müşahidə edilib. Övladlarına qulaq asmayan, onları başa düşməyən, öz dəyərlərini davamlı olaraq təlqin edən, uşağın şəxsi dəyərlərinin formalaşmasına imkan verməyən valideynlər gələcəkdə uşaqları ilə problemlər yaşayırlar. Ailə daxilində yeniyetmənin problemlərini bölüşə biləcəyi insanın olmaması, uşağın çətinliklər qarşısında aciz qalması da narkomaniyaya meyilliyin yaranmasında rol oynayır. Buna görə də ana-ata uşaqları üçün düzgün nümunə olmalı, övladlarına lazımi diqqət, qayğı göstərərək onların daim yanında olduqlarını hiss etdirməlidirlər.

### Bəzən uşaqlar aldadılaraq narkotik maddə istifadəçisinə cəlb edilirlər

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin İnformasiya və analitik araşdırmalar şöbəsinin müdiri Elgün Səfərov deyir ki, yetkinlik yaşına çatmayan uşaqların narkotik maddələrdən, alkoqollu içkilərdən asılılığı ailədə yaranan bəzi problemlər üzündən ortaya çıxır. Adətən, belə ailələrdə boşanma, məişət zorakılığı halları baş verir, valideynlər öz məsuliyyətlərini yerinə yetirmirlər, uşaqlardan öz maraqları üçün suiistifadə edirlər, onları təhsildən yayındıraraq hüquqlarını pozurlar, istismar edirlər.

Ailədəki problemlər, uşaqların nəzarətsiz qalması azyaşlıları birbaşa olaraq, ya narkotik maddələrin satışına yönləndirir, ya da istifadəçisinə çevirir: "Çox zaman narkotik asılılığı yaranan yetkinlik yaşına çatmayan uşaqlar həm də narkomaniyanı yayan şəxslər kimi qeydiyyata alınırlar. Buna görə dəfələrlə yetkinlik yaşına çatmayan şəxslərə qarşı inzibati və cinayət işləri qaldırılıb. Çox təəssüf ki, ötən illər ərzində uşaqların transmilli cinayətkarlıq qruplarına salınması faktları da müəyyən edilib. Bunun qarşısının alınması üçün Daxili İşlər Nazirliyi, Baş Prokurorluq, Dövlət Miqrasiya Xidməti birlikdə vacib tədbirlər həyata keçirib".

Elgün Səfərov hesab edir ki, yetkinlik yaşına çatmayan uşaqların hansı şəraitdə narkotik maddələrə əlçatanlığının daha çox olduğu müəyyənləşdirilməlidir: "Uşaqların aldadılaraq narkotik maddə istifadəçisinə çevrilməsi halları olur. Bəzi hallar olub ki, uşaqlar xaricdə istirahət edib Azərbaycana qayıtdıqdan sonra onun narkotik maddədən istifadə etdiyi müəyyənləşib".

Elgün Səfərov əlavə edir ki, Bakı ilə yanaşı, regionlarda da narkotik maddələrdən istifadə edən uşaqlar qeydə alınıb. 14-18 yaşlı uşaqlar daha çox marixuana istifadəçiləri olurlar. 14 yaşına çatmayan - 10-12 yaşlı uşaqların yapışdırıcılardan, daha yüngül narkotik tərkibli maddələrdən istifadə etdiyi aşkarlanıb: "Çox təəssüf ki, Azərbaycanda belə faktlar olub. Bunları təşkil edən xüsusi transmilli cinayətkar qruplar var. Daxildəki belə qruplar daha çox xaricdən idarə edilirlər".

Dövlət Komitəsinin narkomaniya ilə mübarizəyə yönəlmiş maarifləndirmə işləri apardığını nəzərə çatdıran Elgün Səfərov problemli ailələrlə işləməyi daha üstün tutduqlarını söyləyir. O hesab edir ki, narkomaniya ilə mübarizə üçün psixoloqların yetkinlik yaşına çatmayan uşaqlara nəzarəti, sosial işçilərin bu sahəyə cəlbi vacibdir. Bu məsələ xüsusi yanaşmaların tətbiqini zəruri etdiyi üçün psixoloq və sosial işçilərin də fəaliyyətləri fərqli olmalıdırlar.

Elgün Səfərov əlavə edir ki, narkomaniya kibercinayətkarlıq hesabına da çox inkişaf edir. Buna görə narkomaniya ilə mübarizənin istiqamətlərindən biri kibercinayətkarlıqla mübarizə olmalıdır: "Sosial şəbəkə və digər onlayn vasitələrlə narkotik maddələrin satışını təşkil etmək istəyənlər var. Daxili İşlər Nazirliyi Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə birlikdə internetdə uşaqlar üçün zərərli informasiyaların yerləşdirilməsi üzrə preventiv tədbirlər həyata keçirir. Bunun nəticəsində sosial şəbəkədə onlarla zərərli qrup bağlanılıb. Çox zaman sosial şəbəkələrdə və digər səhifələrdə belə məlumatların yerləşdirilməsi məqsədli şəkildə həyata keçirilir. Bunun üçün təəssüf ki, hətta xaricdən maliyyələşən layihələr də var, onların birbaşa məqsədi uşaqları bu problemə düçar etməkdir".



Komitə rəsmisi bu fikirdədir ki, narkomaniya ilə mübarizə transmilli cinayətdir, ona görə də ona qarşı tək bir ölkə mübarizə apara bilməz. Bu sahədə fəaliyyətlər birləşdirilməli və daha güclü mübarizə aparılmalıdır.

### Travma ilə böyüyən uşaqlar ya ailədən qacır, ya da narkoman olurlar

Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri, professor Hicran Hüseynova deyir ki, Beynəlxalq Səhiyyə Təşkilatının məlumatına görə, dünya əhalisinin 250 milyonu planetimizin ən qlobal problemlərindən birinə çevrilən, insanları ölümə sürükləyən və genofonda sarsıdıcı təsir göstərən bu ağır bəla ilə üzüzədir. Amerika, Latın Amerikası, Avropada narkomanların sayı milyonları ötür. MDB və Asiya ölkələrində 26 milyondan çox insan bu zərərli vərdişin aludəsidir. Dünyada narkomanların 40-45 faizi qadın və uşaqlardır:

"Beynəlxalq statistikaya əsasən, gənclər və yeniyetmələr arasında narkotiklərə aludəçilik hallarının yüksələn xətlə artması xüsusi narahatlıq yaradır. Təəssüflər olsun ki, bu xəstəlik Azərbaycandan da yan keçməyib".

Hicran Hüseynova rəsmi statistikaya əsasən açıqlayır ki, 2014, 2015 və 2016-cı illərdə narkomaniyaya düçar olanlar arasında 15-17 yaşlı şəxslərin sayı 5 nəfər, 2018-ci və 2019-cu illərdə isə 9 nəfər olub.

Azərbaycanda toksikomanların sayının artdığını söyləyən komitə sədrinin sözlərinə görə, ailədə bir nəfərin narkomaniyaya düçar olması, bütövlükdə ailənin məhvinə səbəb olur. Ailədaxili münaqişələrin, məişət zəminində zorakılığın artması, xəstə uşaqların doğulması, əgər uşaq sağlam doğulsa belə, ailədə yaşadığı anormal həyat onun şüuruna, psixologiyasına çox pis təsir göstərir. Aldığı travma isə bəzən ömürboyu onu izləyir. Belə ailələrdə boşanmaların, qətllərin sayı hər zaman yüksək olur. Bu mühitdə böyüyən uşaqlar isə imkan tapan kimi ailədən qacır və ya onlar da bu yolun yolçusuna çevrilirlər. Ailə üzvlərindən birinin narkoman olması həmin ailənin tədricən parçalanmasına, ailədaxili münaqişələrin yaranmasına, ən yaxşı halda isə ailənin yoxsullaşmasına səbəb olur. Bu da sonda ailənin məhvinə gətirib çıxarır.

Komitə sədrinin sözlərinə görə, bir çox valideynlər övladlarının xoşbəxt olması üçün onları maddi cəhətdən təmin etmək, eləcə də onun həyatından istisnasız olaraq, bütün çətinlikləri çıxarmaq lazım olduğunu düşünürlər. Lakin uşağı, ilk növbədə, tərbiyə etmək, ona zaman ayırmaq və səmimi maraq göstərmək, onun həyatında iştirak etmək daha vacibdir. Yeniyetmələrin nümayişkaranə şəkildə müstəqilliyə can atmaları, böyüklərin himayəsindən qurtulmaq istiqamətindəki daimi istəkləri tez-tez böyüklərlə münasibətdə ciddi fikir ayrılıqlarının, etiraz reaksiyasının yaranmasına gətirib çıxarır: "Narkomaniyanın erkən profilaktikasında uşağın mikrososial mühitinin sağlamlaşdırılması üzrə valideynlərlə aparılan iş həlledici əhəmiyyətə malik olur. Ailə Məcəlləsində, İnzibatı Xətalar Məcəlləsində valideynin vəzifə və öhdəlikləri, eyni zamanda, məsuliyyəti xüsusi olaraq qeyd olunur. Lakin əfsuslar olsun ki, bir çox hallarda valideyn öz üzərinə düşən sosial və mənəvi məsuliyyəti tam mənası ilə dərk etmir".

Hicran Hüseynova hesab edir ki, uşağı maddi cəhətdən təmin etmək həmin valideynin tam olaraq öz vəzifəsini yerinə yetirdiyi anlamına gəlməməlidir. Çünki valideyn övladını tərbiyə edir, şəxsiyyət yetişdirir. Ona görə də daim övladı ilə maraqlanmalı, onu cəmiyyətə, həyatın sınaqlarına hazırlamalıdır. Valideyn öz övladına bir dost kimi, onu anlayan və təcrübəli bir insan kimi yanaşmalıdır. Bütün bu məsələlərə görə bu gün təkcə yeniyetmə və gənclərlə deyil, həm də onların valideynləri ilə ayrıca və qarışıq qruplarda (yəni həm uşaqlar, həm də valideynlərdən ibarət qruplar) təlimlər keçirilməli, xüsusi kurslar təşkil olunmalıdır.

Deputatın fikrincə, bütövlükdə ailənin qorunması üçün sağlam həyat tərzinin olması çox vacibdir. Lakin təəssüf ki, bu gün insanlar, xüsusilə gənclər, o cümlədən qadınlar zərərli vərdişlərə aludə olur. Bu isə ya ailənin dağılması, ya ailə uzvünün xəstəliyə düçar olması və vaxtsız vəfat etməsi, ya da xəstə, fiziki qüsurlu uşaqların doğulması ilə nəticələnir: "Bütün bunlar onu göstərir ki, bu problem çox aktualdır. Çünki narkomaniya özüözlüyündə sosial bəladır. Bu problemin aradan qaldırılması üçün hər birimiz ona öz töhfəmizi verməliyik".

Bu kimi problemlərin olmaması üçün maarifləndirmə işlərinin aparılmasını çox vacib sayan komitə sədri əlavə edir ki, ölkəmizin bu problemlə mübarizə aparmaq üçün güclü qanunvericilik bazası mövcuddur. Azərbaycan "Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında" Beynəlxalq Vyana Konvensiyasına 1992-ci ildə qoşulsa da, narkotizmlə və narkobizneslə mübarizənin əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub. Narkomaniyaya və narkotik vasitələrin qeyri-qanuni dövriyyəsinə qarşı mübarizə Azərbaycan dövlətinin prioritetlərindən hesab olunur. Bu günə qədər sözügedən sosial bəlanın aradan qaldırılması məqsədilə Prezident İlham Əliyev tərəfindən imzalanmış üç dövlət proqramı icra olunub. 2019-cu ildən etibarən isə dördüncü dövlət proqramı həyata keçirilir.

Prezidentin sərəncamı ilə təsdiqlənmiş "Uşaqlara dair Strategiyanın həyata keçirilməsi üzrə 2020-2025-ci illər üçün Fəaliyyət Planı"nında da uşaq və gənclərin sağlam həyat tərzi keçirmələri üçün bir sıra tədbirlərin görülməsi nəzərdə tutulur. Qəbul edilən qanun və proqramlar vasitəsilə ayrı-ayrı dövlət strukturlarının, qeyri-hökumət təşkilatlarının, kütləvi informasiya vasitələrinin, hüquq mühafizə orqanlarının, təhsil və səhiyyə sisteminin birgə fəaliyyəti, narkomaniyanın yayılmasının və kütləviləşməsinin qarşısının alınmasında əsas rol oynayıb: "Uşaq və gənclərin sağlam həyat tərzi keçirməsi üçün şəraitin yaradılmasında Birinci Vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın fəaliyyətini xüsusi olaraq qeyd etmək lazımdır. Onun təşəbbüsü və fondun dəstəyi ilə tikilən olimpiya və gənclər mərkəzlərində uşaq, yeniyetmə və gənclər asudə vaxtlarını səmərəli keçirirlər. Uşaq Hüquqlarının müdafiəsi, uşaqların normal inkişafına və sağlamlığına mənfi təsir göstərən hallardan və narkomaniya kimi zərərli vərdişlərdən qorunması məqsədilə qaçqın və məcburi köçkün məktəbləri, yetkinlik yaşına çatmayanlar üçün tərbiyə müəssisələrində, orta-ixtisas, ali təhsil müəssisələrində maarifləndirmə kampaniyaları keçirilir".

### Problemi dəf edə bilərik

Azərbaycanda narkotik istifadəçilər arasında daha çox 25-45 yaşlı insanlar üstünlük təşkil edirlər. Lakin acınacaqlı hal narkomaniyanın getdikcə cavanlaşması və onun artıq gənclər arasında deyil, yeniyetmələr sırasında özünə yer tapmasıdır.

2014-cü ilədək Azərbaycanda rəsmi qeydiyyata alınmış narkotik istifadəçiləri arasında uşaqlar (yaşı 18-dək olanlar) olmasa da, artıq bir necə ildir ki, narkomanların sırasında azyaşlılar da var. Hazırda ölkədə rəsmi qeydiyyata alınmış 33788 nəfər narkomanın 9-u 15-17 yaşlı, 12969 nəfəri 18-34 yaşlı insanlardır. Düzdür, hazırda narkoman yeniyetmələrin sayı çox olmasa da, bununla təskinlik tapmaq olmaz. 18 yaşdan sonra artan rəqəmlər də onu deməyə əsas verir ki, vaxtında preventiv tədbirlər görülmədikdə bu say çoxala və getdikcə daha çox yeniyetmənin narkomaniya bəlasına düçar olmasına səbəb olar.

Hazırda yayılan "patı" isə bu bəlanın genişlənməsinə yol açan qapının "açar"ı sayıla bilər. Ancaq onu dəf etmək olar. Pozitiv ailə əlaqələri, valideynlərin uşaqlarının dostlarından və onların etdiklərindən xəbərdar olması, ailədaxili qaydalar və hər kəsin buna əməl etməsi, valideynlərin uşaqların həyatı ilə maraqlanması, uşağın əlavə fəaliyyətlərlə məşğul olması, narkomaniya və narkotik maddələr haqqında düzgün maarifləndirmə və s. kimi qoruyucu faktorlar övladlarımızın narkotik maddələrdən asılı olmasının qarşısını ala bilər.

***İlhamə İSABALAYEVA,***
***"Azərbaycan"***

# Gədəbəyin qonaqlı-qaralı vaxtıdır



*Əvvəli 1-ci səh.*







Cənubi Qafqazda dəmir yolu xətti 1883-cü ildə çəkildiyi halda, Gədəbəydə 1879-cu ildə dəmir yolu nəqliyyatı fəaliyyət göstərirdi. 37 kilometrlik həmin dəmir yolu XIX əsrin arxitektura abidəsi kimi indi də qorunub saxlanılır. Bundan başqa, rayonda saysız-hesabsız tarixi abidələr də var ki, indi onlar Gədəbəyin qədim mədəniyyət nümunələri hesab olunur.

Bəs rayonun bu turizm potensialından hazırda necə istifadə edilir?

RİH-in başçısı İ.Novruzov deyir ki, rayonda turizmin inkişafı istiqamətində müəyyən işlər görülür: "Qədim tarixə malik Gədəbəydə keçən il iyulun 26-da Milli Yaylaq Festivalına 16 ölkədən nümayəndələr qatıldılar. Düzyurd-Miskinli yaylağında keçirilən festivalda qonaqlara Azərbaycan xalqının zəngin və çoxəsrlik mədəni irsinin yüz illərlə formalaşmış yaylaq və elat mədəniyyətinin nadir incilərinin nümunələri, tarixi abidələr nümayiş etdirildi və bununla Gədəbəyin turizm potensialı bir daha sübut olundu".

Məlum məsələdir ki, turizm gəlirli sahələrdən biridir. Bu gün turizmin inkişafı nəinki sosial-iqtisadi, eləcə də mədəni-siyasi əhəmiyyət kəsb edir. Məhz bu səbəbdən son illər Azərbaycanda turizmin inkişafı ilə bağlı böyük layihələr həyata keçirilir, o cümlədən dünya standartlarına uyğun yeni istirahət məkanları yaradılır ki, bunun da nəticəsində ölkəyə böyük miqdarda valyuta gəlməklə yanaşı, xaricdə Azərbaycan haqqında, onun mədəniyyəti, mətbəxi, eləcə də multikultural dəyərlərə əsaslanan tolerantlıq mühiti haqqında müsbət fikir formalaşır. Turizmin inkişafı həm də əhalinin gəlirlərinin artması, ən əsası isə regionların sosial-iqtisadi inkişafı deməkdir. Bu baxımdan flora və faunası zəngin olan Gədəbəy də istisna deyil.

Haqlı olaraq Gədəbəyi açıq səma altında muzeyə bənzədirlər. Zirvəsi buludlarda dayanan dağlarla, sonu görünməyən dərələrlə, dörd bir yanı sıx meşələrlə, güllü-çiçəkli çəmənlərlə, buz bulaqlarla, gur axan çaylar və şəlalələrlə zəngin olan bu qədim diyar çoxlu tarixi abidələrlə də zəngindir. Qonaqlar xüsusi marşrutlarla bu abidələrə səyahətlər edir, rayonun tarixi haqqında məlumat toplayırlar. Bu sırada rayon mərkəzinə yaxın "Qız qalası"nı, Söyüdlü kəndindəki "Mahrasa" məbədini, Böyük Qaramurad kəndindəki məbədi, Gədəbəy şəhərindəki kilsəni, Əyrivənd kəndindəki "Vəng" abidəsini, Çanaqçı ərazisindəki kilsəni və məbədi, Qaraməmmədli, Novosaratovka, Çardaş, Kilsəli kəndlərindəki məbədləri misal göstərmək olar. Bundan başqa, Gədəbəy bir çox tarixi məqamları özündə yaşadan alban və alman tarixi izlərinin də qovuşduğu məkandır.

Gədəbəyə gəlmək də çətin deyil. Gəncədən Şəmkirə, oradan da Gədəbəyə cəmi 80 kilometrdən bir qədər artıq məsafə var. 6 kilometrlik yasamalı qalxdıqdan sonra qarşıda təbiətin geniş panoramı açılır. Hər tərəf yaşıllığa bürünüb, ətrafdakı meşəli dağlar ruha sərinlik gətirir.

Gədəbəyin rayon mərkəzinə qədər olan məsafədə onlarla turizm məkanı var. Aşağı və Yuxarı Narzan, "Eldorado", "Meh", "Şırxan" və s. istirahət mərkəzləri yay mövsümü ərzində qonaqlarla dolu olur. Çünki isti yay günlərində dağ yerində istirahət etmək, müvəqqəti də olsa, şəhər mühitindən uzaqlaşmaq, ekoloji cəhətdən təmiz ərzaq məhsulları ilə qidalanmaq hər kəsin arzusudur. Təmiz dağ havası, buz bulaqlar, hündür zirvələr, şəlalə və gur axan çaylar bu yerlərdə istirahət edən hər kəsdə xoş ovqat yaradır.

Slavyanka Gədəbəyin ən çox turist qəbul edən kəndlərindəndir. Hər il yüzlərlə ailə kəndə üz tutaraq bəyəndiyi evi seçir və müəyyən vaxt burada istirahət edir. Slavyanka kəndinin bələdiyyə sədri Firuddin Məmmədov deyir ki, turistlərin sayına görə kəndimiz rayonda birincidir. Bunun da əsas səbəbi kəndin səfalı yerdə yerləşməsidir. Burada bir neçə bulaq, o cümlədən Narzan və məşhur "Slavyanka" suyu çıxır. Hazırda kənddə 1280-ə yaxın ev var və onların yarıdan çoxunda qonaq qalır.

Slavyanka kəndinin sakini Azad İsmayılov neçə illərdir ki, evində turist qəbul edir. 10 nəfər qonağın qalması üçün üç otaq ayıraraq hər cür şərait yaradıb. Həmin otaqlardakı səliqə-sahmana söz ola bilməz. Ev sahibi hər il mövsümdən əvvəl onları təmir etdirir. A.İslamov səhər yeməyində qonaqların istəyindən asılı olaraq onlara bal, qaymaq, süd, yumurta, isti çay və təndir çörəyi verir. Əgər turistlər milli mətbəximizin yeməklərindən dadmaq istəsələr, o da hazırlanır, həm də restoran qiymətindən 3-4 dəfə ucuz.

Kəndin digər sakinləri - Zahid Rüstəmov, Qızbəst Əlirzayeva, Mahir Verdiyev, Nazim Qurbanov və başqaları da hər il turist qəbulundan xeyli gəlir əldə etdiklərini dedilər. Zahid Rüstəmovun qənaətinə görə, turistləri ən çox maraqlandıran təbiətə daha yaxın olmaq istəyidir. Onlar qaldıqları müddətdə əsl kənd həyatını yaşamaqla yanaşı, göstərilən xidmətin də yüksək səviyyədə olmasını istəyirlər.

Kənd turizmində İvanovka və Novosaratovka kəndləri də fərqlənir. Novosaratovka kəndinin sakini Nikolay Bıçkov deyir ki, hər il evində onlarla turist saxlayır. Evi səliqə-sahmanlı olduğundan xarici turistlər də qonağı olur. Nikolay həyətində muzey də yaradıb. Deyir ki, əsas məsələ qonaqların diqqətini ölkəmizin tarixinə, milli-mənəvi dəyərlərinə yönəltməkdir.

Öyrəndik ki, hər il mövsümlə əlaqədar turist qəbul edəcək ev sahibləri və istirahət mərkəzləri arasında maarifləndirici söhbətlər aparılır və onların məsuliyyətləri bir daha nəzərlərinə çatdırılır. Rayonda dincəlmək istəyən bütün turistlər qeydiyyata alınır və onlar üçün yaradılan şəraitin, göstərilən xidmətlərin səviyyəsi diqqət mərkəzində saxlanılır. Yeri gələndə xarici turistlər üçün tərcüməçilər, eləcə də turist marşrutları üçün bələdçilər ayrılır. Hətta istirahətlərini başa vurub öz ölkələrinə gedəndə rayon haqqında, onlara göstərilən xidmətin səviyyəsi barədə fikirləri öyrənilir. Həyata keçirilən bu işlər isə Gədəbəydə kənd turizminin inkişafına təkan verir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***




# Olimpiadada 5-ci gün arxada qaldı

İdmançılarımız hələ də medal qazana bilməyiblər



## Daha bir cüdoçumuz mübarizəni dayandırdı

**Olimpiadanın 5-ci günü Azərbaycan yığmasının daha bir cüdoçusu Murad Fətiyev mübarizəyə qoşuldu. 81 kq çəki dərəcəsində qüvvəsini sınayan təmsilçimiz yarışa 1/16 final mərhələsindən başladı.**

22 yaşlı cüdoçumuz Syerra-Leonedən olan Frederik Harrislə üz-üzə gəlməli idi. Lakin özündən 15 yaş böyük olan rəqibi çəki mərasimində iştirak etmədiyindən Fətiyev Olimpiadada texniki qələbə ilə növbəti mərhələ adladı. Muradın 1/8 finaldakı rəqibi monqolustanlı Səid Mollayi oldu. 2018-ci ildə Bakıda dünya çempionu tituluna yiyələnən İran əsilli cüdoçu həmyerlimizə heç bir şans vermədi. O, vazari ilə Fətiyevə qalib gəldi.

Qeyd edək ki, Tokio-2020-də 9 cüdoçu ilə təmsil olunan Azərbaycan yığmasının heyətində bundan əvvəl Kəramət Hüseynov (60 kq), Aişə Qurbanlı (48 kq), Orxan Səfərov (66 kq) və Rüstəm Orucov (73 kq) yarışı medalsız başa vurublar.

## "Karateçi Rafael Ağayevə azarkeşlik edirəm"

**"Bir çox idman növü ilə məşğul olmuşam. Gənclik illərində kendo, badminton və üzgüçülüyə getmişəm". Bunu Yaponiyanın Azərbaycanda fövqəladə və səlahiyyətli səfiri Cuniçi Vada deyib.**



Azərbaycan Milli Olimpiya Komitəsinin "Zəfər günləri" layihəsinin qonağı olan səfir Yaponiyanın Olimpiadada uğurlu start götürdüyünü söyləyib: "Yaponiya yığması Olimpiadada çox yaxşı start götürüb. Yarışın ev sahibi olan ölkə kimi də idmançıların ən yüksək səviyyədə hazırlıq keçməsinə şərait yaradılıb. Bu uğurlu çıxış da hazırlığın nəticəsidir".

Cuniçi Vada "Tokio-2020"də azərbaycanlı karateçilərdən medallar gözlədiyini bildirib: "Özümün də vaxtilə məşğul olduğum badminton növündə dünyanın bir nömrələrindən sayılan Kento Momota pərəstiş edirəm. Azərbaycan idmançılarından isə bir çoxları tərəfindən bəyənilən karateçi Rafael Ağayevə azarkeşlik edirəm. Düşünürəm ki, Olimpiya idman növlərinə ilk dəfə daxil olan karate növündə Azərbaycanın da güclü idmançıları var. Komandanız karate yarışlarında uğurlar qazanacaq".



## "Püşkdə bəxtim gətirmədi"

**"Hamı burada medal qazanmağımı istəyirdi. Təəssüf ki, medalsız qaldım". Bunu Azərbaycan yığmasının cüdoçusu Rüstəm Orucov Tokio Yay Olimpiya Oyunlarındakı çıxışını dəyərləndirərkən deyib.**

73 kq çəki dərəcəsində mübarizə aparan yığmamızın bayraqdarı 1/4 final mərhələsində yaponiyalı Şohei Onoya, bürünc medal döyüşündə isə cənubi koreyalı An Çanqrimə məğlub olub və yarışı 5-ci pillədə tamamlayıb.

Rüstəmin fikrincə, Ono ilə erkən qarşılaşmaq onun medal şansının əlindən alıb: "Püşkdə də bəxtim gətirmədi. Üçüncü görüşdə Olimpiya çempionu ilə qarşılaşmalı oldum. Həmin görüşdə bütün gücümü itirdim. Ondan sonra bərpa oluna bilmədim ki, sona qədər mübarizəni davam etdirib 3-cü yeri tutum. Bilmirəm, bəlkə də, belə qismət idi".

30 yaşlı Avropa çempionu yenidən əvvəlki formasını bərpa etməyə çalışacağını əlavə edib: "Necə olacağını bilmirəm. Hələ ki, özümə gələ bilməmişəm. Özümü toparlayıb yenidən forma yığa bilsəm, hər kəs görəcək. Mənə dəstək olanların hamısına təşəkkür edirəm".

## Dağ velosipedində qaliblər müəyyənləşdi



"Tokio-2020"də qadınlar arasında dağ velosipedi üzrə kross yarışlarında fəxri kürsünün hər üç pilləsinə İsveçrə idmançıları qalxıblar.

Yarışda velosipedçilər 20,5 kilometr məsafə qət ediblər. 38 idmançının mübarizə apardığı yarışda məsafəni hamıdan tez - 1 saat 15 dəqiqə 46 saniyəyə qət edən Yolanda Neff Olimpiya çempionu olub. Sina Fray yarışı ikinci, Linda İnderqand isə üçüncü pillədə başa vurublar.

## 63 min nəfər əhalisi olan ölkə qızıl medal qazandı

**Bermud adaları Olimpiya çempionluğu qazanan ən azsaylı əhaliyə malik ölkə olub. Cəmi 63 min adamın yaşadığı ölkə tarixinin ilk uğuruna "Tokio-2020"də imza atıb.**

Flora Daffi qadın triatlonçuların yarışında qızıl medala yiyələnib. Bunadək Bermud adaları Olimpiya Oyunlarında yalnız bir bürünc qazanıb. "Monreal-1976"da boksçu buna nail olub.



## Uduzan legionerimizdən özünə təsəlli

"Əsas odur ki, yaxşı qılınc oynatdım"



**"İlk Olimpiadamı 1/8 finalda başa vurdum. Bu, pis nəticə deyil". Bunu Azərbaycan qılıncoynadanı Anna Başta deyib.**

"Tokio-2020"də 1/8 finalda mübarizəni dayandıran sablyaçı üzləşdiyi uğursuzluğa baxmayaraq, Yaponiya paytaxtından məmnun ayrılıb: "Əsas odur ki, yaxşı qılınc oynatdım. Özümlə fəxr edirəm. İrəliyə doğru böyük addım atdım. Deyə bilərəm ki, ilk oyunlarım müsbət təcrübə ilə nəticələndi. Əlbəttə, evə Olimpiya çempionu statusu ilə qayıtmaq istəyərdim. Amma Olimpiya medalları konfet qabında qoyulmayıb ki, sadəcə yaxınlaşıb götürəsən. Mənim vaxtım hələ qabaqdadır. Bunun üzərində çalışıram".

Legioner idmançımız ABŞ təmsilçisi Anne-Elizabet Stouna qarşı keçirdiyi ilk görüşün nəyin hesabına qələbə ilə bitirməsinə də aydınlıq gətirib: "Sevinirəm ki, Olimpiadadakı ilk görüşümdə qələbə qazandım. Amerikalı Elizabet-Anne Stouna qalib gəldim. Bu qarşılaşmaya bir neçə ay hazırlaşmışdım. Şadam ki, məşqçi ilə qurduğumuz taktika özünü doğrultdu. Bütün bunlar hədər getmədi. Çox ağır idi. Öz oyun üslubumu diktə etmək asan olmadı. Rəqib oyun boyu məni sındırmağa, ritmdən çıxarmağa, görüşün axarını dəyişməyə çalışırdı. Hakimlərlə mübahisələr edirdi. Lakin mən buna hazır idim. Nə edəcəyimi bilirdim. O da mənimlə görüşə xüsusi hazırlıqla çıxmışdı. Amma emosiyalarımın öhdəsindən mən daha yaxşı gəldim".

1/8 finalda rusiyalı Olqa Nikitinaya uduzaraq mübarizəni dayandıran Başta əlindən gələni etdiyini bildirib: "İkinci qarşılaşmam isə təəssüf ki, məğlubiyyətlə bitdi. Çox ağır "setka"ya düşmüşdüm. Bəli, üzücü idi. Amma sonadək döyüşdüm. Bilirəm ki, nədə uduzmuşam. Bu da çox vacibdir. Bir az istirahət edib, sonra səhvlərim üzərində çalışacağam".

Anna Olimpiadanın bəxş etdiyi hisslərdən də danışıb: "Emosiyalar baxımından çox qeyri-adi turnir idi. Soyadını Olimpiada ilə yanaşı qoyanda dərhal adamı həyəcan bürüyür. Olimpiadada qələbə qazanmaq sözlə ifadə olunmayacaq emosiyalar bəxş edir. Məni dəstəkləyən, azarkeşlik edən, gecə 4-də oyanıb mənə, mənim ilk Olimpiadama baxan hər kəsə təşəkkür edirəm".

**Fərman Salmanov - 90**

# İki ölkənin xalqlarının qürur duyduğu azərbaycanlı

**Yaxın və uzaq xarici ölkələrdə dövlətə və xalqa xidmətləri ilə Azərbaycanın adını şərəfləndirən, hörmət və ehtiram qazandıran Fərman Qurban oğlu Salmanov dünya neft tarixinə Rusiyanın Tümen bölgəsinin zəngin təbii sərvətlərinin ilk kəşfiyyatçılarından biri kimi daxil olmuşdur. Bu dəyərli ziyalı hələ 21 əvvəl Ümummilli Lider Heydər Əliyevin 2001-ci il 26 iyul tarixli sərəncamı ilə Azərbaycan-Rusiya arasında iqtisadi və elmi əlaqələrin inkişafındakı böyük xidmətlərinə görə "Şöhrət" ordeninə layiq görülmüşdür.**



Bundan sonra Azərbaycan Prezidenti İlham Əliyevin 9 iyul 2019-cu il tarixli sərəncamına əsasən, görkəmli şəxsiyyətin xatirəsinin əbədiləşdirilməsi məqsədilə Azərbaycan Dövlət Neft və Sənaye Universitetində təhsil alan, xüsusi istedadı ilə fərqlənən 2 nəfər tələbə üçün "Fərman Salmanov adına təqaüd"ün təsis edilməsi, Şəmkir şəhərində Fərman Salmanovun heykəlinin ucaldılması, habelə təhsil aldığı orta məktəbə onun adının verilməsi qərara alınmışdır.

Bu günlərdə Rusiya Federasiyası və Azərbaycanda 90 illiyi böyük rəğbətlə qeyd edilən Fərman Salmanov 1931-ci il iyulun 28-də Şəmkir rayonunun Morul kəndində anadan olub. Orta məktəbi 1947-ci ildə əla qiymətlərlə başa vuran Fərman bir müddət Şirvan Kompleks Ekspedisiyasında kollektor işləyib, sonra arzusunda olduğu Azərbaycan Sənaye İnstitutuna (indi Azərbaycan Dövlət Neft Akademiyası) qəbul olur.

Fərman 1954-cü ildə həmin institutun Geoloji kəşfiyyat fakültəsini uğurla bitirib. O, ixtisas seçimi barədə söhbət düşəndə həmişə deyərdi: "Mən 8-ci sinifdə oxuyanda SSRİ neft sənayesi naziri Nikolay Baybakov Şəmkirə gəlmişdi. Rusca yaşıdlarımdan bir qədər yaxşı danışdığımdan ali qonağa məktəbimiz barədə məlumat vermək mənə həvalə edilmişdi. Görüşün sonunda Baybakov hansı peşəni seçəcəyimi soruşdu. Cavab verdim ki, neftçi olmaq istəyirəm. O, seçimimi təriflədi və dedi ki, neft - ölkəmizin gələcəyidir. Bu görüş mənim ixtisas seçimimi və taleyimi müəyyən etdi. İnstitutu bitirdikdən sonra təyinatım Bakıya verildikdə mən Baybakova məktub yazdım, Sibirə köçürülməyimi xahiş etdim. Məni Moskvaya çağırdılar, oradan da Kuzbasa göndərdilər, hətta bilet pulunu da verdilər".

Fərman Salmanovun Sibirə göndərilməsi üçün xahiş etməsinin özəl tarixçəsi var. Adını eşidib, üzünü görmədiyi Sibirə məhəbbəti onun qəlbində babası Süleyman kişi oyatmışdı. Çar rejiminin müstəmləkəçilik siyasətinə və yerli çinovniklərin kənd adamlarına zülmünə qarşı etiraz etdiyinə görə Süleyman kişi 1888-ci ildə Sibirə sürgün edilmişdir. O, 1904-1905-ci illərdə rus-yapon müharibəsinin iştirakçısı olarkən göstərdiyi şücaətlər müqabilində mükafat olaraq sürgündən azad edilmişdir. Burada sibirli qızı Olqa İosifovna ilə ailə qurmuş, xanımı Firuzə adını qəbul etmişdir. Az sonra Süleyman baba ailəsi ilə birlikdə vətənə qayıtmışdır. Süleyman baba nəvələrinə həmişə Sibir və Uzaq Şərq haqqında danışarmış. Hətta nəvələrindən birinə Amur çayının şərəfinə Amura adı vermişdi.

Babası Çar rusiyası tərəfindən sürgünə göndərilən, atası 1937-ci ildə repressiya tüğyanında sovet hökuməti tərəfindən həbs edilən gənc mühəndis-geoloq Fərman Salmanov neft axtarmaq üçün əvvəlcə Kuzbasa göndərilir. İki-üç il Novosibirsk və Kemerova vilayətlərində apardığı kəşfiyyat işləri heç bir nəticə vermir. Kuzbasın relyefini nəzərdən keçirərkən, bu ərazilərdə neft ola bilməyəcəyi qənaətini rəhbər şəxslərlə bölüşür. Fikrini də belə əsaslandırır ki, neft və qaz yataqları geniş ərazilərdə ola bilər. Kuzbasın relyefi bu standartlara cavab vermir.

Təklif və tələblərinə laqeyd yanaşıldığını görən Fərman Salmanov 1957-ci ilin avqustunda kəşfiyyat işləri aparmaq üçün rəhbərliyin razılığını almadan öz briqadası ilə Surquta yollanır. Onun bu məsləhətsiz addımı narahatçılığa səbəb olur. Onu işdən çıxarmaq, haqqında cinayət işi qaldırmaq istəyirlər. Bundan xəbər tutan işçiləri Fərman Salmanovun həbs olunacağı təqdirdə tətilə çıxmaq barədə qərar qəbul edirlər. Rəhbərlik kollektivin bu addımının SSRİ-nin beynəlxalq imicinə zərbə vuracağından ehtiyat edərək, köhnə tarixə əmr hazırlayır, onun Surquta gedişini rəsmləşdirir. Bununla da Fərman Salmanovun qarşısında öz neft möcüzəsini reallaşdırmaq üçün əlverişli fürsət yaranır. Xoşbəxtlikdən Magion kəndi yaxınlığında aylardan bəri qazıntısı davam etdirilən ilk kəşfiyyat quyusu - "Megiyon" yatağı 1961-ci il martın 21-də fantan vurur. Bu zaman Salmanov əleyhdarlarına belə bir məktub yazır: "Möhtərəm yoldaşlar, Megiyonda 2180 metr dərinlikdən neft fışqırır. Aydındırmı?"

Fərman Salmanovun SSRİ Geologiya Nazirliyindəki əleyhdarları onun bu uğuruna kölgə salmağa çalışaraq bu "fışqırığın" adi bir təsadüf olduğunu gündəmə gətirirlər. Əleyhdarlarının fikrincə, təbii anomaliya olan bu fantan tezliklə tükənəcək, çəkilən xərc, əziyyət heçə gedəcək. Halbuki Fərman Salmanovun o zaman qazdığı quyu indi də Rusiyanın ən böyük neft yatağı sayılır. Həmin quyudan gündə 200 min barel "qara qızıl" çıxarılır ki, bu da bəzi ölkələrin gündəlik neft hasilatının yarısına bərabərdir.

Dedi-qodulara, maneələrə baxmayaraq, həmyerlimiz öz elmi metodlarını istehsalata tətbiq etməkdən çəkinmir, qısa müddətdə növbəti uğuruna imza atır. O, Üst-Balıqda ikinci neft-qaz quyusunun kəşfindən sonra zəhmətinin bəhrəsini özünəməxsus qürur və qələbə sevinci ilə qeyd edir. Kremlə, Sov.İKP-nin XXII qurultayına və şəxsən sovet lideri Nikita Sergeyeviç Xruşşova ünvanlandığı: "Mən neft kəşf etmişəm. Bax belə!" iki cümləlik teleqramında həm sevincini, həm də rəhbərlik qarşısında əzəmətini ifadə edir.

Sovet geoloqları Fərman Salmanovun bu kəşfindən sonra onunla hesablaşmalı olurlar və Sibir qısa müddətdə Rusiya iqtisadiyyatının aparıcı qüvvəsinə çevrilir. Bütün bunlar barədə ötən əsrin 70-ci illərində ilk dəfə şair-publisist Səyavuş Sərxanlı "Ulduz" jurnalında dərc etdirdiyi "Sibir nağılı" sənədli povestində Sibir cəngavəri adlandırdığı Fərman Salmanovun keşməkeşli həyatı və fəaliyyəti barədə dolğun yazmışdı. Bundan sonra Sibir cəngavərinin adına şeir, hekayə, povest və romanlar yazılmış, haqqında film çəkilmişdir.

Barəsində müasir dövrümüzün ensiklopediyası sayılan Wikipediada yazılmış aşağıdakı sözlər də həmyerlimizin Rusiya iqtisadiyyatına verdiyi töhfənin yığcam ifadəsidir: "Fərman Salmanov ömrünün 50 ilini Sovet İttifaqı və Rusiya Federasiyasının neft-qaz sənayesinə həsr etmiş, 100-dən artıq nəhəng neft-qaz yatağını kəşf və ya onların kəşfində iştirak etmişdir. Belə nəhəng yataqlardan Mamontov, Megiyon, Pravdinsk, Üst-Balıq, Surqut, Urengoy, Yamburq və digərlərini misal göstərmək olar. 1978-ci ildən 1987-ci ilə qədər F.Salmanov Tümen vilayətinin neft-qaz kəşfiyyatı idarəsi "Qlavtumengeologiya"ya rəhbərlik etmişdir. 1987-1991-ci illərdə SSRİ Geologiya nazirinin birinci müavini işləmişdir. Ölümünə qədərki dövrdə isə Rusiyanın "İtera Qaz Şirkəti" prezidentinin məsləhətçisi kimi çalışmışdır.

Fərman Salmanovun xidmətləri keçmiş SSRİ rəhbərliyi tərəfindən yüksək qiymətləndirilərək Sosialist Əməyi Qəhrəmanı fəxri adına, "Lenin" və "Qırmızı Əmək Bayrağı" ordenlərinə, Rusiya Federasiyasının Əməkdar geoloqu və digər fəxri adlara layiq görülmüşdür. Ulu Öndər Heydər Əliyevin sərəncamı ilə müstəqil Azərbaycanın ali mükafatı - "Şöhrət" ordeni ilə təltif edilmişdir. Şəmkirdə təhsil aldığı Morul kənd orta məktəbi və ən böyük küçələrdən biri onun adını daşıyır.

Dünya şöhrətli neftçi, mühəndis-geoloq, geologiya-minerologiya elmləri doktoru, Rusiya Elmlər Akademiyasının müxbir üzvü olmuş Fərman Salmanov böyük elmi kəşflərin, 160-dan artıq monoqrafiya və elmi əsərlərin müəllifidir. O, Xanti-Mansi və Yamalo-Nenets Muxtar dairələrinin, Surqut şəhəri və ABŞ-ın Texas ştatının fəxri vətəndaşı idi. 2015-ci ilin fevralında Rusiyanın Nijnevartovsk şəhərinin mərkəzi küçələrindən birinə Fərman Salmanovun adı verilmişdir. 2018-ci ilin dekabrından isə Rusiyanın Surqut şəhərinin hava limanı Salmanovun şərəfinə adlandırılmışdır. Surqut hava limanının, eləcə də Nijnevartovsk şəhəri mərkəzi küçələrindən birinin Fərman Salmanovun adını daşıması hansısa siyasi qərarın deyil, Rusiya xalqının ümumxalq səsverməsinin nəticəsidir. Bu faktın özü də həmyerlimizə Rusiyada bəslənən hörmətin, rəğbətin göstəricisidir. Moskva, Surqut, Salexard, Yamal və Xanti-Mansidə onun heykəl və büstləri ucaldılmış, hazırda Surqutda küçə, neftqazkondensat yatağı və gəmi onun adını daşıyır. Rusiyalı neftçi mütəxəssislər, xüsusən də Tümen vilayətinin gənc geoloqları Fərman Salmanovun ictimai-siyasi və əmək fəaliyyətini elmi-tədqiqata cəlb etməyə üstünlük verirlər. Onun rus xalqının tarixində və yaddaşında əbədiləşməsi, ölümündən sonra böyük ehtiramla yad edilməsi Fərman Salmanov şəxsiyyətinə və əməyinə verilən çox böyük dəyərdir.

Həmyerlimiz böyük uğurlara imza atdığı illərdə SSRİ-nin Baş naziri olmuş Aleksey Kosiginin Fərman Salmanov barədə dediyi bir cümlə onun Rusiya üçün nə dərəcədə qiymətli olduğunu bir daha təsdiqləyir: "Salmanov olmasaydı, Rusiya xalqı Böyük vətən müharibəsi illərindəki kimi indi də çörək talonları ilə yaşayacaqdı".

Bu fikirlərdə böyük həqiqət var. Son zamanlar ABŞ-ın və digər dövlətlərin təzyiq və sanksiyalarına Rusiyanın duruş gətirə bilməsi, ilk növbədə, Fərman Salmanovun bu ölkəyə bəxş etdiyi neft və qaz yataqları ilə əlaqədardır. Rusiya həmin quyuların hesabına hazırda dünyanın ən böyük "qara qızıl" hasilatçısına çevrilib. Bu sərvətdən əldə edilən gəlirlərin hesabına Rusiya öz iqtisadiyyatını gücləndirib.

Rusiya və Azərbaycan xalqına qürurlu duyğular yaşadan Fərman Salmanov iki ölkə arasında əlaqələrin möhkəmləndirilməsinə daim kömək göstərib. O, Rusiyada Azərbaycan diasporunun formalaşması və inkişafına böyük əmək sərf edib. Fərman Salmanov ölkəmizin neft və qaz sektorunun inkişafında da əlindən gələni əsirgəməyib.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

# Paytaxtda abadlaşdırılan növbəti həyət sakinlərin istifadəsinə verilib

**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Bizim həyət" layihəsi çərçivəsində növbəti abadlaşdırılmış həyət sakinlərin istifadəsinə verilib.**

AZƏRTAC xəbər verir ki, yenilənmiş həyət Bakı şəhəri, Nizami rayonu, Qara Qarayev prospekti, 71, 73 ünvanlarında 500 nəfər sakinin yaşadığı binaları əhatə edir.

"Bizim həyət" layihəsinin əsas məqsədi Bakı həyətlərinin ekoloji cəhətdən təmiz və abad edilməsi, şəhər ekologiyasının sütununu təşkil edən yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır.

Abadlaşdırılan növbəti həyətdə əlil və sağlamlıq imkanları məhdud olan insanların rahat hərəkəti nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması, gənclərin asudə vaxtlarının səmərəli keçirmələri və onlarda sistematik idmanla məşğulolma refleksinin formalaşdırılması məqsədilə müxtəlif idman qurğuları, futbol və şahmat meydançaları, uşaqlar üçün oyun meydançaları, velosiped yolu salınıb. Yeni həyətin ərazisində 2 ədəd söhbətgah inşa edilib, oturacaqlar, tullantılar üçün qutular quraşdırılıb.








Sakinlərin istək və maraqları nəzərə alınaraq, həyətdə yeni işıqlandırma dirəkləri, yanğın hidrantları quraşdırılıb, binaların fasadları, dam örtükləri və giriş hissələri tam təmir olunub, bloklara elektromaqnit kartla giriş sistemi tətbiq edilib. Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, əlavə 45 ədəd ağac əkilib və 800 kvadratmetr sahədə yaşıllıq zolağı salınıb. Layihənin Bakının bütün rayonlarında həyata keçirilməsi nəzərdə tutulur.

Bununla əlaqədar paytaxtın abadlaşdırılmağa ehtiyacı olan həyətləri haqqında məlumat və tövsiyələrin IDEA İctimai Birliyinə təqdim edilməsi xahiş olunur.

# ADA-nın "Yay düşərgəsi"

## Lider mobil operator məktəbliləri rəqəmsal fəaliyyəti ilə tanış etdi







**Ənənəvi olaraq ADA Universiteti tərəfindən yay mövsümü ərzində ölkənin müxtəlif orta məktəblərinin şagirdləri üçün təşkil olunan "Yay düşərgəsi" proqramı bu dəfə "İnformasiya Texnologiyaları həftəsi" çərçivəsində "Azercell Telekom" MMC-yə səfər etdi.**

Məktəblilər ilk olaraq ən böyük "Azercell" Müştəri Xidmətləri Mərkəzində (Bəsti Bağırova küçəsi, 2) qonaq olub, ön masa arxasında "Azercell" əməkdaşlarının işini canlı olaraq izləyiblər. Onlar "Azercell"də müştəriyə xidmət mədəniyyəti, müştəri məmnuniyyətinin əsasları, ön masa əməkdaşlarının abunəçilərin suallarının cavablandırması prosesi ilə bilavasitə tanış olublar.

Daha sonra "Azercell" şirkətinin baş ofisini ziyarət edən düşərgə iştirakçılarına şəbəkə texnologiyaları ilə bağlı məlumatlar verilib. "Azercell"in ekspertləri tərəfindən mobil texnologiyaların növbəti inkişaf meyilləri, əşyaların interneti, ümumilikdə İKT sahəsinin perspektivləri haqqında təqdimatlar keçirilib. Təqdimatlardan sonra məktəblilər üçün viktorinalar təşkil edilib və "Azercell" tərəfindən hədiyyələr təqdim olunub.

Qeyd edək ki, "Azercell" şirkəti uzun illərdir ADA Universiteti ilə müxtəlif sahələrdə əməkdaşlıq edir. Şirkət ADA-nın təşkil etdiyi startap yarışmalarının tərəfdaşı qismində çıxış edərək karyera sərgilərində iştirak edib, universitetdə təhsil alan bir qrup xüsusi istedadlı tələbələrə təqaüd ayırmaqla onların fərdi və peşəkar inkişafına dəstək olub.

Azərbaycanda təhsil və maarifləndirmənin inkişafına, o cümlədən informasiya və kommunikasiya texnologiyaları sahəsində mütəxəssislərin yetişdirilməsinə böyük önəm verən "Azercell" həm də istedadlı şagirdlərin informatika üzrə beynəlxalq olimpiadalarda iştirakını dəstəkləyir. Şirkət xüsusi qayğıya ehtiyacı olan 1000-dən çox uşağa "Busuu" dilöyrənmə tətbiqi üçün pulsuz kodlar və nömrələr təqdim edib. Bundan əlavə, "Azercell" şirkəti paytaxt və regionlarda "İnternet təhlükəsizliyi və rəqəmsal vətəndaşlıq" mövzusunda şagird, müəllim və valideynlər üçün təlimlər də təşkil edib.


## BİLDİRİŞ

"Azərbaycan İnvestisiya Şirkəti" ASC işçiləri üçün könüllü tibbi sığorta təminatı üzrə xidmətlərin satın alınması məqsədilə keçirilmiş kotirovka sorğusu proseduru başa çatmışdır. Tender komissiyasının 04.06.2021-ci il tarixli qərarına əsasən **"Paşa Sığorta" ASC** kotirovka sorğusunun qalibi seçilmişdir.

Qalib şirkətlə 13.07.2021-ci il tarixli müqavilə bağlanmışdır.

*Tender komissiyası*

## BİLDİRİŞ

"Bakı Metropoliteni" QSC tərəfindən 23 iyun 2021-ci il tarixdə "Bakı Metropoliteni" QSC üçün hidroizolyasiya məhsullarının satın alınmasına dair keçirilmiş təkliflər sorğusu müsabiqəsində **"BMY CASPİAN" MMC** qalib elan olunmuşdur.

Qalib gəlmiş təşkilatla 252732,40 (iki yüz əlli iki min yeddi yüz otuz iki manat 40 qəpik) manat ƏDV daxil məbləğində müvafiq satınalma müqaviləsi imzalanmışdır.

*Tender komissiyası*

## BİLDİRİŞ

Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi yanında Bakı Şəhər Memarlıq və Şəhərsalma Baş İdarəsi tərəfindən 29 iyun 2021-ci il tarixdə keçirilmiş "Dəftərxana və təsərrüfat malları"nın və "İnventarlar"ın alınması ilə bağlı kotirovka sorğusu baş tutmamış hesab edilmişdir.

*Tender komissiyası*


# "Azercell" bir daha qanvermə aksiyası keçirdi

## Şirkət əməkdaşları talassemiya və hemofiliya, eləcə də leykoz xəstəliyindən əziyyət çəkən uşaqlara dəstək oldu

**İyulun 27-də "Azercell Telekom"un baş ofisində Azərbaycan Talassemiya Federasiyası İctimai Birliyinin təşkilatçılığı ilə talassemiya və hemofiliya, eləcə də leykoz xəstəliyindən əziyyət çəkən uşaqlara yardım məqsədilə qanvermə aksiyası təşkil olunub.**

Mərkəzi Qan Bankının həkim heyəti tərəfindən həyata keçirilən aksiyaya "Azercell" şirkətinin çoxsaylı əməkdaşı qatılıb. Peşəkar tibb vasitələrinin tətbiqi ilə icra edilən prosedur zamanı donorların və tibb işçilərinin təhlükəsizliyini təmin etmək üçün bütün zəruri təhlükəsizlik tədbirləri həyata keçirilib. Həkim-hematoloqlar hər bir donoru hərtərəfli tibbi müayinə etdikdən sonra onlardan qan götürüblər. Toplanmış qan ehtiyatı Milli Hemotologiya və Transfuziologiya Mərkəzinin Mərkəzi Qan Bankı şöbəsində qeydiyyata alınmış və qan köçürülməsinə ehtiyac duyan uşaqlara yönəldiləcək.

Aksiyanın məqsədi talassemiya və hemofiliya, eləcə də digər irsi qan xəstəliklərindən əziyyət çəkən uşaqlara yardım etməklə yanaşı, cəmiyyətin diqqətini bu sosial məsələyə cəlb etməkdir. Çünki həm karantin rejiminin tətbiqi, həm də isti yay ayları ilə əlaqədar yaranmış qan çatışmazlığı həyatları qandan asılı olan hematoloji xəstələrə mənfi təsir göstərə bilər.









Qeyd edək ki, həmin aksiya şirkətin ümumən əməkdaşlarının iştirakı ilə həyata keçirilən artıq ikinci bu cür sosial təşəbbüsdür. Hələ ötən il karantin rejiminin tətbiq olunmağa başladığı ilk aylardan "Azercell Telekom" baş ofisində ilk qanvermə aksiyasını həyata keçirib.


## Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığının Nümayəndəliyi kvalifikasiyalı şirkətləri gigiyenik dəstlərin (şəxsi gigiyena əşyalarının) satın alınması üçün *ITBAZE0032021 №-li tenderdə iştirak etməyə dəvət edir*

Satın alınacaq əşyalar müvəqqəti köçkünlərin ehtiyacları üçün istifadə ediləcək. Tələb olunan tender sənədləri aşağıdakı yollarla əldə edilə bilər:

- **https://azerbaijan.un.org/az/137412-tender-supply-dignity-hygienic-kits** səhifəsindən yükləyə bilərsiniz. - Elektron poçtu: **azebabid@unhcr.org** elektron poçtuna sorğu göndərin.

- Tender sənədlərini bu ünvandan almaq olar: BMTQAK, Winter Park Plaza, Mirzəağa Əliyev küç., 210 Bakı, AZ1014, Azərbaycan, **hər iş günü səhər saat 10:00-dan 14:00-a** qədər.

Təkliflərin təqdim edilməsi üçün son tarix **26 avqust 2021-ci il saat 23:59-a** qədərdir.

## The Representation of the United Nations High Commissioner for Refugees invites qualified companies to participate in the tender *ITBAZE0032021 for procurement of Dignity Kits (Hygienic Kits)*

The procured items will be used for the needs of the temporary displaced persons in Azerbaijan. Access to the required tendering documents can be obtained as follows:

- Downloaded from **https://azerbaijan.un.org/az/137412-tender-supply-dignity-hygienic-kits** - E-mail: Send an e-mail request to **azebabid@unhcr.org**

- Tender documents are available at: UNHCR, Winter Park Plaza, 210 Mirzaagha Aliyev str. Baku, AZ1014, Azerbaijan, **every working day between 10:00 am until 14:00 pm**

The Deadline for submission of offers is **23:59Hrs on 26 August 2021.**


# Vətən müharibəsi iştirakçılarından rüşvət alan vəzifəli şəxslər saxlanılıb

Dövlət Təhlükəsizliyi Xidməti (DTX) dövlətin ordu quruculuğu sahəsində qanunla qorunan mənafelərinə zərər vuran, hakimiyyət orqanlarının fəaliyyətinə kölgə salan cinayət əməllərinə qarşı mübarizə tədbirlərini davam etdirir.

AZƏRTAC DTX-nin saytına istinadla xəbər verir ki, Vətən müharibəsi iştirakçısı olan hərbi qulluqçulara dövlət tərəfindən müəyyən edilmiş maddi təminatların ödənilməsinə görə bəzi vəzifəli şəxslərin rüşvət almalarına dair əldə olunmuş məlumatlar əsasında Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən kompleks araşdırma tədbirləri həyata keçirilib.

Faktla bağlı başlanılmış cinayət işi üzrə Silahlı Qüvvələrin Baş Klinik Hospitalının bölmə rəisi Eyvazov Vüsal Qorxmaz oğlunun xidməti vəzifələrinin icrası zamanı həmin hospitalın digər əməkdaşı Ağayev Hüseyn İlham oğlunun vasitəsilə çoxsaylı hərbi qulluqçuların hər birindən onlara dövlət tərəfindən birdəfəlik sosial sığorta müavinətinin ödənilməsi üçün Vətən müharibəsində aldıqları xəsarət dərəcələrinin təyin edilməsi müqabilində pul vəsaitlərini rüşvət qismində istəyərək almasına əsaslı şübhələr müəyyən edilib. Keçirilmiş kompleks əməliyyat-istintaq tədbirləri nəticəsində Vüsal Eyvazov və Hüseyn Ağayev cinayət başında yaxalanıblar. Vüsal Eyvazov Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 311.3.2-ci (vəzifəli şəxs tərəfindən təkrar rüşvət alma), Hüseyn Ağayev 32.5-ci, 311.3.2-ci (təkrar rüşvət almada iştirakçılıq) və digər maddələri ilə təqsirləndirilən şəxs qismində məsuliyyətə cəlb edilərək barələrində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Hazırda cinayət işi üzrə araşdırmalar davam etdirilir.

# Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin əməkdaşı piyada əleyhinə minaya düşüb

İyulun 27-də partlamamış silah-sursatın axtarışı ilə bağlı Cəbrayıl rayonunun Mehdili kəndinə ezam olunmuş Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin əməkdaşı Nəsirov Bəhruz Tapdıq oğlu piyada əleyhinə minaya düşməsi nəticəsində müxtəlif dərəcəli bədən xəsarəti alıb.

Cəbrayıl Rayon Prokurorluğunun AZƏRTAC-a daxil olan məlumatında bildirilib ki, prokurorluq əməkdaşları tərəfindən hadisə yerinə baxış keçirilib, məhkəmə-tibb ekspertizası təyin edilib, digər prosessual hərəkətlər yerinə yetirilib.

Faktla bağlı Cəbrayıl Rayon Prokurorluğunda araşdırma aparılır.

# ANAMA-nın Cəbrayılda piyada əleyhinə minaya düşən əməkdaşı evə buraxılıb

İyulun 27-də Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) əməkdaşı, 1979-cu il təvəllüdlü Nəsirov Bəhruz Tapdıq oğlu işğaldan azad edilmiş Cəbrayıl rayonu ərazisində xidməti vəzifəsini yerinə yetirərkən piyada əleyhinə minanı zərərsizləşdirən zaman dirəyin altında quraşdırılan digər bir minanın partlayışı baş verib.

ANAMA-dan AZƏRTAC-a bildiriblər ki, nəticədə Nəsirov Bəhruz Tapdıq oğlu partlayış zamanı üzərində olan xüsusi qoruyucu geyim və dəbilqə sayəsində müxtəlif dərəcəli yüngül bədən xəsarətləri alıb. O, ilkin tibbi müayinədən sonra evə buraxılıb.

Agentlik işğaldan azad edilmiş ərazilərin mina və partlayıcı qurğularla yüksək səviyyədə çirklənməsini nəzərə alaraq, təhlükəsizlik səbəbindən bir daha vətəndaşlarımızı həmin ərazilərə xüsusi icazə almadan daxil olmamağa çağırır.

# Baş Prokurorluq və DİN qumbaranı partladaraq özünü öldürən və dörd polis əməkdaşına xəsarət yetirən şəxslə bağlı birgə məlumat yayıb

İyulun 27-də narkotiklərin qanunsuz dövriyyəsi ilə bağlı daxil olmuş əməliyyat məlumatı əsasında 1982-ci il təvəllüdlü, əvvəllər Cinayət Məcəlləsinin narkotiklərlə əlaqəli və qaçaqmalçılıq maddələri ilə məhkum olunmuş Müseyib Ələsgərovun paytaxtın Yasamal rayonu ərazisində idarə etdiyi avtomaşın saxlanılarkən həmin şəxs polis əməkdaşlarına tabesizlik göstərərək qaçmağa cəhd edib. Bu zaman üzərində olan qumbara partlayıb, nəticədə M.Ələsgərov ölüb.

Baş Prokurorluğun və Daxili İşlər Nazirliyinin Mətbuat xidmətlərinin AZƏRTAC-a daxil olan birgə məlumatında bildirilib ki, avtomaşında olan sərnişin, əvvəllər soyğunçuluq cinayətinə görə məhkum olunmuş, 1993-cü il təvəllüdlü Elman Qurbanov isə qaçarkən saxlanılıb. Axtarış zamanı ondan külli miqdarda narkotik vasitə aşkarlanaraq götürülüb.

Partlayış zamanı dörd nəfər polis əməkdaşı müxtəlif dərəcəli bədən xəsarətləri alıb. Avtomaşına baxış keçirilərkən əlavə silah-sursat aşkarlanıb.

Faktla bağlı Yasamal Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanıb. Hazırda iş üzrə istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirləri davam etdirilir.

## ALLAH RƏHMƏT ELƏSİN!

"Azərbaycan" qəzeti redaksiyasının kollektivi qocaman jurnalist

**ŞAMİL ŞAHMƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 432-37-68, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 539-63-82 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 4586
Sifariş 1339
Qiyməti 40 qəpik